

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## NAXÇIVAN: 5000 illik tarix, 100 illik muxtariyyət




8

SƏS

№ 025 (6950)

9 fevral 2024-cü il.
Qiymәti 60 qәpik

# Dünya liderləri Prezident İlham Əliyevi təbrik edirlər



5

# Milli birliyimizin, qələbəmizin təntənəsi: ZƏFƏR SEÇKİSİ




4

## "Azərbaycandan nümunə götürülməlidir"



13

## "Hər şey AŞPA-nın mövqeyindən asılıdır"



12

## Dağıdıcı müxalifətin seçki dələduzluğu ifşa olundu



11

## Kirayə müqavilə ilə olsun, yoxsa..?



12

## Olar səni qucaqlayım?



12

# “Azərbaycan xalqı üçün tarixi bir gün və tarixi seçkilər idi”

## Prezident İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin Baş katibini qəbul edib

***Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Lebedevi qəbul edib. Sergey Lebedev Prezident İlham Əliyevə seçkilərdə inamlı qələbə münasibətilə təbriklərini çatdırdı.***



Dövlətimizin başçısı Sergey Lebedevə və MDB müşahidə missiyasının bütün üzvlərinə bu seçkiləri müşahidə etdiklərinə görə təşəkkürünü bildirdi, MDB müşahidə missiyasının Azərbaycanda bu və daha əvvəlki seçkilərdə də müşahidələrdə fəal şəkildə iştirak etdiyini vurğuladı.

Sergey Lebedev qeyd etdi ki, Azərbaycanda seçki prosesini müşahidə etmək onlar üçün böyük şərəf və eyni zamanda məsuliyyətdir. Vurğuladı ki, bu, Azərbaycan xalqı üçün tarixi bir gün və tarixi seçkilər idi. Ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu, regionda uzunmüddətli və davamlı sülh üçün yaxşı imkanların yarandığını deyən qonaq bu seçki prosesində sadə insanlarla, seçicilərlə, müşahidəçilərlə geniş söhbətlərinin olduğunu, Azərbaycan xalqının bu seçkilərdə xüsusi rəğbət hissi ilə öz seçki hüququndan istifadə etdiklərini bildirdi.

Müstəqil Dövlətlər Birliyinin Baş katibi Azərbaycan xalqının ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olunandan sonra ilk dəfə seçkilərin keçirilməsi prosesində iştirak etdiyini dedi, həmçinin işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işlərini, keçmiş məcburi köçkünlərin öz evlərinə qayıtmasını və həmin ərazilərdə seçki hüquqlarından istifadə etdiklərini vurğuladı.

Sergey Lebedev MDB müşahidə missiyasının 170-ə yaxın müşahidəçi ilə seçki prosesində təmsil olunduğunu dedi. Qonaq hər bir seçkinin ölkələrin qanunvericiliyinə uyğun və Seçki Məcəlləsi əsasında keçirilməli olduğunu qeyd etdi və bu seçkilərin də Azərbaycan Respublikasının müvafiq qanunlarına uyğun qaydada açıq, demokratik şəkildə təşkil olunduğunu bildirdi.

Baş katib bu gün mətbuat konfransı keçirəcəklərini və seçki müşahidə missiyasının fəaliyyəti haqqında hesabatlarını geniş ictimaiyyətə təqdim edəcəklərini dedi.

Dövlətimizin başçısı seçkilərin ilk dəfə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü təmin olunmuş şəkildə ölkəmizin bütün ərazisində, o cümlədən Xankəndidə, Şuşada və digər rayonlarda keçirildiyini qeyd edərək bunun Azərbaycan xalqı üçün xüsusi tarixi əhəmiyyət daşıdığını vurğuladı.

Keçmiş məcburi köçkünlərin artıq bir hissəsinin işğaldan azad olunmuş ərazilərə qaytarıldığını və bunun üçün Böyük Qayıdış Proqramı əsasında məcburi köçkünlərin geri qayıdışına dair layihələrin icra edildiyini deyən Prezident İlham Əliyev birinci mərhələnin 2026-cı ildə başa çatdırılacağını, bundan sonrakı mərhələlərdə də məcburi köçkünlərin geri qayıtmalarının təmin olunacağını diqqətə çatdırdı.

Söhbət zamanı MDB-nin aidiyyəti strukturları ilə Azərbaycan arasında əməkdaşlıq məsələlərinə də toxunuldu, Azərbaycanın MDB çərçivəsində əlaqələrə və müzakirələrə töhfə verdiyi, MDB ölkələri arasında siyasi, mədəni, iqtisadi və digər sahələrdə əməkdaşlıq layihələri barədə fikir mübadiləsi aparıldı.

# “Əlaqələrin hərtərəfli inkişafı üçün böyük imkanlar var”



## Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibini qəbul edib

***Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Can Mini qəbul edib. Prezident İlham Əliyev müşahidə missiyasında iştirakına görə Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibinə, müşahidə qrupunun üzvlərinə və üzv dövlətlərə minnətdarlığını bildirdi.***

Can Min Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatının fəal tərəfdaşlarından biri olduğunu və Azərbaycan ilə əlaqələrin hərtərəfli inkişafına əhəmiyyət verdiklərini bildirdi. Ölkəmizlə müxtəlif sahələrdə yaxın tərəfdaşlıq əlaqələrinin olduğunu deyən Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Heydər Əliyev Fondunun xətti ilə qurulan mədəni-humanitar əməkdaşlığı xüsusilə qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı arasında əlaqələrin hərtərəfli inkişafı üçün böyük imkanların olduğunu bildirdi, ölkəmizin, eyni zamanda, Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə də ikitərəfli qaydada çox sıx əlaqələrini vurğuladı. Bu xüsusda dövlətimizin başçısı prezident seçkilərində qələbə münasibətilə ilk təbrikləri Təşkilata üzv ölkələrdən aldığını qeyd etdi. Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirakını məmnunluqla xatırladı.

Qonaq Azərbaycanın COP29-a ev sahibliyi münasibətilə təbriklərini çatdırdı, bunun Azərbaycanın insaniyyətə və bəşəri inkişafa verdiyi töhfənin bariz nümunəsi olduğunu bildirdi. Can Min COP29 çərçivəsində də Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlıq məsələlərini qeyd etdi.



# Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Baş katibini qəbul edib

Dünən Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib. Seçkilərdə inamlı qələbəsi münasibətilə Prezident İlham Əliyevə Türk Dövlətləri Təşkilatı adından təbriklərini çatdıran Kubanıçbek Ömüralıyev təşkilatın geniş müşahidə missiyası ilə bu seçkiləri müşahidə etdiklərini, Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Şuşada, Xankəndidə və azad edilmiş digər ərazilərdə olduqlarını, TDT ailəsinə daxil olan başqa təsisatlarla əlaqələndirilmiş şəkildə bu seçki prosesini müşahidə etdiklərini vurğuladı. Qonaq seçkilərin çox mükəmməl və peşəkarlıqla təşkil olunduğunu qeyd etdi.

TDT-nin Baş katibi şanlı Qarabağ Zəfəri və ölkəmizin ərazi bütövlüyünün tam təmin olunması ilə əlaqədar Azərbaycan xalqının bu seçkilərdə xüsusi əhvali-ruhiyyə ilə seçki hüquqlarından istifadə etdiklərini dedi.

Kubanıçbek Ömüralıyev qeyd etdi ki, bu gün TDT-nin müşahidə missiyasının mətbuat konfransı olacaq və missiya seçkilərlə bağlı müşahidələrinin nəticələrini bəyan edəcək. Prezident İlham Əliyev TDT-nin müşahidə missiyasının bütün üzvlərinə seçkiləri müşahidə etdiklərinə görə minnətdarlığını bildirdi.

Kubanıçbek Ömüralıyev qeyd etdi ki, Azərbaycan Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya prosesinə və tərəfdaşlığın daha da yüksəlməsinə daim öz töhfələrini verir.

Görüşdə bu il Azərbaycanda TDT-nin qeyri-rəsmi Zirvə toplantısının keçiriləcəyi məmnuniyyətlə qeyd edildi. Təşkilatın bundan sonra da inkişafının, əməkdaşlığı və tərəfdaşlığı daha da gücləndirəcək yeni layihələrlə çıxış etməsinin vacibliyi diqqətə çatdırıldı.



# Prezident seçkilərində namizədlər dövlətimizin başçısını qazandığı parlaq qələbə münasibətilə təbrik ediblər

Fevralın 8-də Azərbaycan Respublikası Prezidenti seçkilərində namizəd olmuş Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev, həmçinin namizədlikləri öz təşəbbüsləri ilə irəli sürülmüş Zahid Oruc və Fuad Əliyev seçkilərdə Azərbaycan xalqının böyük etimadını qazanaraq qalib gəlmiş Prezident İlham Əliyevə zəng ediblər. Namizədlərin hər biri demokratik, şəffaf və ədalətli şəkildə keçirilmiş seçkilərdə yenidən parlaq qələbə qazanması münasibətilə Azərbaycan Respublikasının Prezidentini səmimiyyətlə təbrik edib, səsvermənin nəticələrinin Azərbaycan xalqının dövlət başçısına olan inam və etimadının ifadəsi, ölkəmizin sosial-iqtisadi inkişafı və xalqımızın rifahı yolunda həyata keçirdiyi qətiyyətli siyasətə verilən yüksək qiymətin və dəstəyin əyani təzahürü olduğunu bildiriblər.

Namizədlər budəfəki seçkilərin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş ölkəmizin bütün ərazisində keçirilməsinin mühüm tarixi hadisə olduğunu qeyd ediblər. Bunun əyani göstəricisi olaraq Prezidentin ailə üzvləri ilə birlikdə Xankəndi şəhərində yerləşən seçki məntəqəsində səs verməsinin böyük siyasi və rəmzi məna daşıdığını vurğulayıblar.

Namizədlər Prezident İlham Əliyevə möhkəm cansağlığı, Azərbaycanın firavanlığı, yüksəlişi və qlobal aləmdə nüfuzunun daha da güclənməsi yolunda qarşıya qoyduğu bütün hədəflərə çatmağı arzulayaraq, xalqımızın əmin-amanlığı, rifahı və tərəqqisi naminə fəaliyyətində yeni-yeni uğurlar və nailiyyətlər diləyiblər.

Azərbaycan Respublikasının Prezidenti təbriklərə görə təşəkkürünü bildirib. Dövlətimizin başçısı prezident seçkilərində iştirak edən namizədlər arasında konstruktiv dialoqa əsaslanan siyasi mədəniyyətin nümayiş etdirilməsini müsbət qiymətləndirərək seçkiqabağı təşviqat prosesi zamanı namizədlər tərəfindən səsləndirilmiş bir sıra təkliflərin nəzərə alınacağını qeyd edib. Prezident İlham Əliyev seçkilərdə iştirak etmiş namizədlərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

# "Qardaş Türkiyənin mənəvi-siyasi dəstəyi yüksək qiymətə malikdir"



*Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib. Prezident İlham Əliyev seçkiləri müşahidə etdiklərinə görə nümayəndə heyətinə minnətdarlığını bildirdi. Şamil Ayrım nümayəndə heyəti adından çıxış edərək dövlətimizin başçısını prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi.

Qonaq Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın səmimi dostluğunun və qardaşlığının ölkələrimiz arasında əlaqələrin inkişafında xüsusi rolunu vurğuladı. Dövlətimizin başçısı seçkilərdə qazandığı qələbə münasibətilə Rəcəb Tayyib Ərdoğanın ona təbrik məktubu göndərdiyini və Türkiyə Prezidenti ilə telefonla danışdıqlarını məmnunluqla qeyd etdi.

Şamil Ayrım Prezident İlham Əliyevin və ailə üzvlərinin Xankəndidə səs vermələrinin böyük əhəmiyyət daşıdığını bildirdi. Dövlətimizin başçısı da Xankəndidə səsvermənin böyük siyasi və rəmzi mənasının olduğunu vurğuladı.

Şamil Ayrım 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında Prezident İlham Əliyevin və Azərbaycanın dünyaya bir nümunə göstərdiyini qeyd etdi. Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinin dövlətimizin başçısı tərəfindən yerinə yetirildiyini deyən qonaq vurğuladı ki, Azərbaycan xalqı ilk dəfə olaraq bu seçkilərdə ərazi bütövlüyü və suverenliyi təmin olunmuş şəkildə qürurla iştirak edib. Azərbaycan Prezidenti Vətən müharibəsində Qələbədə Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla qardaş Türkiyənin mənəvi-siyasi dəstəyinin yüksək qiymətləndirildiyini bir daha qeyd etdi.

Görüşdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinə qarşı ədalətsizlik vurğulandı, Türkiyə Böyük Millət Məclisinin bunun əleyhinə olduğu və Türkiyə parlamentində də bununla əlaqədar müvafiq bəyanatların və müraciətlərin qəbul olunacağı qeyd edildi, Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməsinin vacibliyi bildirildi.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatı və Türk Dövlətləri Parlament Assambleyası çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu, Türk Dövlətləri Təşkilatında əməkdaşlığın və tərəfdaşlığın daha da dərinləşdirilməsinin önəmi qeyd olundu. Nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının daha da inkişafı üçün fəaliyyətini yüksək qiymətləndirdiklərini dedilər.

# Prezident İlham Əliyev TÜRKPA-nın Baş katibini və beynəlxalq seçki müşahidə missiyasının rəhbərini qəbul edib



***Dünən Prezident İlham Əliyev Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Baş katibi Mehmet Süreyya Eri və TÜRKPA beynəlxalq seçki müşahidə missiyasının rəhbəri, Türkiyə Böyük Millət Məclisinin üzvü Osman Mesteni qəbul edib. Prezident İlham Əliyev seçkilərdə müşahidəçi qismində iştirakına görə TÜRKPA nümayəndə heyətinə və müşahidə missiyasının bütün üzvlərinə təşəkkürünü bildirdi.***

Müşahidə missiyasının üzvləri prezident seçkilərində inamlı qələbə münasibətilə dövlətimizin başçısını təbrik etdilər. Onlar həm Şuşada, həm də Xankəndidə səsvermə prosesini müşahidə etdiklərini məmnunluqla bildirdilər və bunu tarixi məqam kimi qiymətləndirdilər.

Prezident İlham Əliyev bu seçkilərin tarixi hadisə olduğunu deyərək ailə üzvləri ilə birlikdə Xankəndi şəhərində təşkil olunmuş səsvermə prosesində iştirak etdiyini xüsusi vurğuladı.

Qonaqlar bildirdilər ki, Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan xalqının Qarabağ Zəfəri bütün Türk dünyasının zəferidir və bu, Türk dünyasının özünəinamını daha da gücləndirib. Söhbət zamanı Türk dünyasının bir ailə olduğu və bu çərçivədə əməkdaşlığın bütün sahələrdə daha da dərinləşdirilməsinin və genişləndirilməsinin vacibliyi qeyd edildi.




# Milli birliyimizin, qələbəmizin təntənəsi: ZƏFƏR SEÇKİSİ

***Keçirilən seçki bütövlükdə xalqımız və dövlətimiz üçün tarixi bir gün olaraq yaddaşlara həkk olundu və bütün ərazilərimizdə suverenliyimizin bərpa edilməsi fonunda tariximizə qızıl hərflərlə yazıldı. Zəfər seçkisi olaraq bu seçkinin qəbul olunması da təsadüfi sayılmır. Əsrdən artıq tarixi olan erməni separatizminə son qoyulduqdan sonra, qələbə əldə edildikdən sonra keçirilən seçki əlbəttə ki, başqa cür adlandırıla da bilməzdi. Bu seçki bütövlükdə xalqımızın qələbə təntənəsi oldu.***

Zəfəri Azərbaycan xalqı təkcə hərb meydanında deyil, siyasi meydanda da bir daha qazandı və xalqımız öz layiqli liderinə, Ali Baş Komandanına səs verməklə, milli birliyimizi bir daha bütün dünyaya nümayiş etdirmiş oldu.

Bəli, son iki yüz illik tarixi ərzində ilk dəfə qələbə qazanan və torpaqlarını işğaldan azad edən, ərazilərini geri qaytaran Azərbaycan elə ilk dəfə də məhz həmin dövrün ən möhtəşəm və ən təntənəli seçkisini keçirmiş oldu. Bu dəfə Azərbaycan öz suverenliyini tam bərpa edən bir ölkə olaraq seçki keçirdi. Bu dəfə Azərbaycan qalib ölkə olaraq seçki keçirdi və qalib ölkənin qalib prezidentini seçdi. Azərbaycanın bu dəfə seçkini öz müstəqillik tarixi ərzində ilk dəfə bütün ərazilərində keçirməsi tarixi hadisə olaraq yadda qaldı. Bu imkanı öz xalqına, öz ölkəsinə bəxş edən və dərin siyasi zəkaya sahib olan lideri, Ali Baş Komandanı, cənab İlham Əliyevi seçməklə isə, Azərbaycan xalqı seçkinin, məhz sözün əsl mənasında, Zəfər seçkisi olduğunu bir daha təsdiq etdi.

Zəfər seçkisi olaraq bu seçkini qəbul etməkdə haqlı olduğumuz tarixə ekskursiya etdiyimiz zaman da bəlli olur. Zaman-zaman təcavüzə, işğala məruz qalan Azərbaycan torpaqlarının bütövlüyü uğrunda mübarizə aparan sərkərdələrimiz az olmayıb, amma son iki yüz illik Azərbaycan tarixində heç bir sərkərdə, heç bir dövlət başçısı, tökülən qanlara, mücadilələrə baxmayaraq, Azərbaycana məxsus torpaqları geri qaytara bilməyib. Azərbaycan əraziləri davamlı şəkildə parçalanıb, zəbt edilib, bir hissəsi də hətta bir növ, “pay” verilib. İrəvanın bu gün Ermənistan ərazisi kimi tanınması belə təsadüfi deyil və “Gülüstan”, eləcə də “Türkmənçay” müqavilələri ilə bağlı həmin tarixi hadisələr barədə məlumatı olan insanlar hansı məqamlardan bəhs edildiyinin fərqindədirlər. Ötən əsrin əvvəllərində belə bizə, xalqımıza məxsus torpaqlar hissə-hissə parçalanaraq “bağışlanılıb” və bunun qarşısının belə alınmasına nail olan olmayıb. Azərbaycana məxsus ərazilərə əvvəlcə erməni adları verilib, sonra da həmin ərazilərə məskunlaşmaqla onlara məxsus olduğu barədə qondarma iddialar qaldırılıb, amma buna qarşı çıxılması belə müşkülə çevrilib. Belə tarixi faktlar barədə kifayət qədər məlumatlar var və bunları sadalamağa da ehtiyac duyulmur, çünki bu barədə cəmiyyətimiz yetərincə məlumatlıdır. Belə faktlar barədə məlumatlı olanlar indi fərqindədirlər ki, bəli, ilk dəfə olaraq torpaqlarımızı işğaldan azad edən sərkərdə, dövlət rəhbəri, ölkə başçısı məhz cənab Ali Baş Komandanımız oldu. Fərqindədirlər ki, ölkəmizin ərazilərinin təcavüzünə, eləcə də ərazilərimizdə separatizmə, terrorçuluğa son qoyan və bütövlükdə regionun təhlükəsizliyini təmin edən də məhz cənab İlham Əliyev oldu və bu gün dünya ictimaiyyəti ölkə rəhbərimizi belə tanıyır. Bütün bunların fonunda da cəsarətlə deyə bilərik ki, ölkəmizin ərazilərini işğaldan azad edən, həmin əraziləri geri qaytaran, xalqımıza qələbə sevincini yaşadan, ölkəmizə qalib ölkə adı qazandıran bir sərkərdəyə Azərbaycan seçicisi, Azərbaycan vətəndaşı öz etimadını bir daha bəyan etdi və onsuz da qalib ölkə rəhbərimizi bir daha qalib elan etdi. Zəfər seçkisi bizim milli birliyimizin, qələbəmizin təntənəsi olaraq qəbul edildi.

Xalqımızın, ölkəmizin düşmənləri də fərqində oldular ki, Azərbaycan Prezidentinin arxasında məhz Azərbaycan xalqı dayanıb. Azərbaycanda olan həmrəyliyin onlar bir daha şahidi oldular və başa düşdülər ki, ölkə rəhbərimiz öz gücünü xalqdan alır və qələbə əzmi də təsadüfi deyil. Əleyhimizdə olan və milli maraqlarımıza qarşı olan qüvvələr başa düşdülər ki, Azərbaycan Prezidentinin bundan sonra da qələbələrə imza atmasına qətiyyən mane ola bilməzlər və bundan sonra da istənilən istiqamətdə ölkə rəhbərimizin qələbələr əldə edəcəyi zərrə qədər də şübhə doğura bilməz. Zəfər seçkisi dedikdə həm də bunu nəzərdə tuturuq və əminik ki, səsini cənab Ali Baş Komandanına verən, ona etimad göstərdiyini, inamını bəyan edən seçicilər ölkə rəhbərimizi bütün dünya liderləri arasında qalib Prezident olaraq gördüyünü bir daha təsdiq etdilər.

Azərbaycanın Qarabağ iqtisadi rayonu bir vaxtlar işğal altında olduğu dönəmdə ölkəmizdə keçirilən bütün seçkilərə xaricdən müdaxilələr edildi, seçkilərə mane olmağa çalışanlar oldu. Bu vaxta qədər hər dəfə ölkəmizdə seçki keçirilərkən əleyhimizdə olan qüvvələr qarayaxma kampaniyasına, şərə, böhtana əl atdılar ki, həmin seçkilərə kölgə salsınlar, Azərbaycanın nüfuzuna xələl gətirsinlər. Hətta bir neçə dəfə aranı qarışdırmaq, vətəndaş müharibəsi yaratmaq cəhdləri də oldu və bunların qarşısı alındı. Bütün bu məkrli planlar heç də təsadüfi və səbəbsiz deyildi və məqsəd də qarışıqlıqlar törətməklə, Qarabağın erməni separatçılarının nəzarətində qalmasına, işğala dəstək verilməsinə nail olmaq idi. Bunun üçün də həm seçkilər zamanı, həm də istənilən həssas dönəmdə müxtəlif variantlara əl atıldı, təzyiqlərdən, hədələrdən, şantajdan belə dəm vuruldu. Onların dəyirmanına su tökənlər də yalan vədlər verilərək aldadıldı və məkrli niyyətlərinin reallaşdırılması üçün bütün mümkün planlar işə salındı. Lakin heç nəyə nail ola bilmədirlər, çünki Azərbaycanı, Azərbaycan Prezidentini öz iradəsindən, öz qətiyyətindən döndərə bilmədilər, Qarabağla bağlı siyasətinə zərrə qədər də təsir edə bilmədilər. Ali Baş Komandan, cənab Prezident İlham Əliyev öz siyasi zəkası, iradəsi və qətiyyəti ilə çalışdı və məsələnin əvvəlcə sülh yolu ilə həllinə nail olmaq planlaşdırılsa da, buna Ermənistan tərəfi və havadarları mane olduqlarına görə məsələni hərb yolu ilə həll etdi. Zəfər qazanıldı, torpaqlarımız işğaldan azad olundu, Qarabağın bütün əraziləri geri qaytarıldı və sonda hər kəs başa düşdü ki, ölkəmizi və ölkə rəhbərimizi öz iradəsindən döndərmək mümkün deyil. Dərk etdilər ki, Azərbaycanın apardığı uğurlu siyasətin, eləcə də hərbi və diplomatik gedişlərin müəllifi, ümumilikdə, ölkəmizin yol xəritəsini hazırlayan cənab Prezident İlham Əliyev qələbə əzminə sahib olan liderdir. Zəfər seçkisini uğurlu şəkildə, bayram əhval ruhiyyəsi ilə, təntənəli şəkildə keçirməklə və öz liderinə, Ali Baş Komandanına etimadını bir daha təsdiqləməklə isə Azərbaycan xalqı ölkəmizin əleyhinə olan, qələbələrimizə görə narahat olan bədxahlara, xüsusən də, Qərbdəki və Avropadakı məkirli niyyət güdən ermənipərəst qüvvələrə yerlərini göstərdi və hədlərini də bildirdi. Bildirildi ki, biz qalib ölkəyik və Ali Baş Komandan, cənab İlham Əliyev də qalib ölkənin məhz qalib Prezidentidir. Bu seçki və onun nəticələri ilə çoxlarına mesaj verildi ki, qələbə, Zəfər məhz Azərbaycana, Azərbaycan Prezidentinə məxsusdur. Zəfər seçkisi olduğu mesajı verilən bu seçki milli həmrəyliyimizin daha bir təzahürü və qələbəmizin daha bir təntənəsi oldu.

Bu seçkinin tarixi seçki kimi qiymətləndirilməsi, Zəfər seçkisi adı alması, məhz Ali Baş Komandanın, cənab İlham Əliyevin siyasətinin məntiqi nəticəsi sayılır. Daha dəqiq desək, Zəfər seçkisi Azərbaycanın Qarabağ iqtisadi rayonunun ərazilərinin işğaldan azad edilməsinin, ölkəmizin əldə etdiyi qələbənin məntiqi davamı olaraq qəbul olunur. Sözsüz ki, 44 günlük hərbi mübarizə ilə Ermənistanın kapitulyasiyaya məcbur edilməsi, Şuşaya, Xankəndinə, Ağdama, Laçına, Kəlbəcərə, Zəngilana və işğaldan azad olunan bütün ərazilərimizə bayrağımızın sancılması, lokal antiterror tədbirləri ilə ərazilərimizin separatçılardan təmizlənməsi, suverenliyimizin, ərazi bütövlüyümüzün tam bərpa edilməsi Böyük Qələbəmiz, Zəfərimiz olaraq, Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazıldı. Məhz bu qələbənin davamı, məntiqi yekunu olaraq, bütün ölkəni əhatə edən bir seçkinin, Zəfər seçkisinin keçirilməsi, həmin qələbəni təmin edən milli birliyimizin daha bir təntənəsi oldu. Qarabağda qələbəmizi, ərazi bütövlüyümüzü, suverenliyimizi yumruq kimi birləşərək qazandığımız kimi, Zəfər seçkisini də məhz milli birliyimiz və həmrəyliyimizin təntənəsi ilə keçirdik. Bununla da yenə qələbəyə, Zəfərə imza atdıq. Azərbaycan xalqı, Azərbaycan vətəndaşı bu seçkiyə gedib öz liderinə səs verməklə, Zəfərimizə kölgə salmaq üçün əldən-ayaqdan gedənlərə, bizə mane olmaq istəyənlərə layiqincə cavab verdi. Seçicilər qələbəmizin arxasında xalqımızın sonuna qədər dayanmaq əzmində olduğunu, qalib liderinə, Ali Baş Komandanına etimadını sübut etmək üçün məntəqələrə getdilər və bunu sübut etdilər. Zəfər seçkisi ilə sübut etdilər ki, qələbə məhz bizə, bizim Prezidentimizə, xalqımızın layiqli lideri cənab İlham Əliyevə məxsusdur və bundan sonra da belə olacaq.

**İnam Hacıyev**

# Dünya liderləri Prezident İlham Əliyevi təbrik edirlər

Bir sıra ölkələrin dövlət və hökümət başçıları dövlətimizin başçısı İlham Əliyevə prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbriklərini göndərməkdə davam edirlər. “Səsvermənin nəticələri Sizin yüksək siyasi nüfuzunuzu, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı və onun mövqelərinin dünya arenasında möhkəmləndirilməsi üzrə həyata keçirdiyiniz kursa ümumxalq









dəstəyini tam təsdiq edir.”

Bu fikir Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin seçkilərdə qələbə qazanması münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubunda yer alıb. Rusiya Prezidenti məktubunda, həmçinin yazıb: “Bakı ilə müttəfiqlik münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, bütün sahələrdə səmərəli ikitərəfli əməkdaşlığın, beynəlxalq gündəliyin aktual məsələlərinin həllində tərəfdaşlıq qarşılıqlı əlaqələrinin genişləndirilməsi üzrə fəal birgə işi davam etdirəcəyik.







Şübhəsiz ki, bu iş dost xalqlarımızın maraqlarına cavab verir, Cənubi Qafqazda və Xəzər regionunda sabitliyin, təhlükəsizliyin gücləndirilməsi istiqamətində gedir”.

Vladimir Putin Prezident İlham Əliyevə dövlət başçısı vəzifəsində məsuliyyətli fəaliyyətində səmimi-qəlbdən uğurlar, möhkəm cansağlığı və əmin-amanlıq arzu edib.

* * *

Dünən Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Şarl Mişel fevralın 7-də Azərbaycan Respublikasında keçirilmiş seçkilərdə qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik edib və yeni mandatın icrasında dövlətimizin başçısına uğurlar arzulayıb.

Telefon danışığı əsnasında Azərbaycan və Avropa İttifaqı arasında əlaqələrin müxtəlif aspektləri, xüsusilə energetika və nəqliyyat sahəsində əməkdaşlıq məsələləri geniş müzakirə olunub. Şarl Mişel nəqliyyat və bağlantılar sahəsində Avropa İttifaqının region ölkələri ilə əlaqələri inkişaf etdirmək üçün konkret layihələrlə çıxış etdiyini vurğulayıb.

Tərəflər COP29-un Azərbaycanda keçirilməsi və bu çərçivədə Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq məsələlərinə də toxunublar. Şarl Mişel üçtərəfli formatda Brüsseldə Azərbaycan, Ermənistan və Avropa İttifaqı arasında görüşlərin bərpa edilməsi ilə bağlı Prezident İlham Əliyevdən mövqeyini bildirməsini xahiş edib. Prezident İlham Əliyev Azərbaycanın həmişə Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə keçirilən üçtərəfli görüşləri dəstəklədiyini bildirib.

Söhbət zamanı Ermənistanla Azərbaycan arasında sülh danışıqları ilə bağlı fikir mübadiləsi aparılıb, Azərbaycan Respublikasının Prezidenti Administrasiyası və Ermənistanın baş nazirinin aparatı arasında dekabrın 7-də ikitərəfli əsasda qəbul edilmiş birgə bəyanatın irəliyə doğru mühüm addım olduğu vurğulanıb.

* * *

Fevralın 8-də Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Bağçalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Dövlət Bağçalı İlham Əliyevə prezident seçkilərində qazandığı qələbə münasibətilə təbriklərini çatdırıb, ona Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qələbənin və suverenliyimizin tam bərpa olunmasının önəmini bir daha vurğulayıb. Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirib. Telefon söhbəti zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin hər zaman yüksələn xətlə inkişaf edəcəyi vurğulanıb.

* * *

Dünən İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Neçirvan Bərzani prezident seçkilərində qələbə qazanması münasibətilə İlham Əliyevə təbriklərini çatdırıb, ona fəaliyyətində uğurlar arzulayıb.

Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirib. Prezident İlham Əliyev və Neçirvan Bərzani keçirdikləri görüşləri məmnunluqla xatırlayaraq, bunun əməkdaşlığın genişlənməsi işinə xidmət etdiyini vurğulayıblar.

* * *

Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Qırğızıstan Prezidenti dövlətimizin başçısı İlham Əliyevə prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbriklərini çatdırıb. Sadır Japarov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının önəmini bir daha qeyd edərək, ölkəmizdə sürətli inkişaf proseslərinin getdiyini və dövlətimizin beynəlxalq mövqelərinin daha da gücləndiyini vurğulayıb.

Qırğızıstan dövlətinin başçısı ikitərəfli münasibətlərimizin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu ehtiramla qeyd edib.

Sadır Japarov Prezident İlham Əliyevə Azərbaycanın tərəqqisi naminə fəaliyyətində uğurlar arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Telefon söhbəti zamanı Azərbaycan və Qırğızıstan prezidentləri ikitərəfli dostluq və qardaşlıq münasibətlərimizin bundan sonra da hərtərəfli inkişaf edəcəyinə əminliklərini bildirib və əlaqərimizin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

* * *

Fevralın 8-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Qazaxıstan dövlətinin başçısı İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib, ona ölkəmizin hərtərəfli inkişafı və tərəqqisi naminə fəaliyyətində uğurlar arzulayıb. Kasım-Jomart Tokayev dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın bütün sahələrdə böyük uğurlar qazanmasının və ölkəmizin beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinin önəmini qeyd edib.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları Azərbaycan-Qazaxıstan dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə edərək əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

# Yüksək faizli təşəkkür

## *İlham Əliyev daha bir müddətə sakit şəraitdə və yüksək seçici fəallığı ilə prezident seçildi*






Bu gün dünyanın gözü və qulağı Azərbaycandadır. Yenicə seçkilərdən çıxmış ölkəmizdə baş verən hadisənin təsirindən çıxanlar çox azdır. Hər kəsin bir münasibəti olsa da ümumi fikir ortadadır, seçkilər demokratik və şəffaf keçirildi, heç bir insident qeydə alınmadı, seçicilər sakit şəraitdə öz səslərini layiq bildikləri namizədlərə verdilər. Ümumi səslər paylaşılarkən məlum oldu ki, Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən İlham Əliyev 92,03 faizlik üstünlüklə tam və mütləq qələbə qazanıb. Bu qələbənin əldə edilməsi də səbəbsiz deyil. Çünki...

Səbəblər barədə xarici mətbuatda da geniş məqalələr dərc olunur. Rusiya mətbuatı yazır:

Fevralın 7-də Azərbaycanda keçirilən növbədənkənar prezident seçkiləri hazırkı dövlət başçısı İlham Əliyevin son dərəcə inamlı qələbəsi ilə başa çatıb. Ölkə tarixində ilk dəfə səsvermənin Qarabağ da daxil olmaqla onun bütün ərazisində keçirilməsi nəticəni əvvəlcədən müəyyənləşdirdi - Mərkəzi Seçki Komissiyasının ilkin məlumatlarına görə, seçicilərin 92%-dən çoxu Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə nail olmuş prezidentə səs verib. Artıq başqa ölkələrdən olan həmkarları da siyasətçini qələbə münasibətilə təbrik etməyə başlayıblar. Ekspertlər, müşahidəçilər və seçki komissiyalarının nümayəndələri 76,7 faiz seçici fəallığının son dərəcə yüksək olduğunu və Əliyevin bu təsirli nəticəyə nail olduğunu qeyd ediblər.

7 fevral seçkilərinin əsas özəlliyi ondan ibarətdir ki, Azərbaycan tarixində ilk dəfə olaraq bütün ölkə ərazisində, o cümlədən 2023-cü ilin payızında keçirilən antiterror tədbirlərindən sonra geri qaytarılan Qarabağ da keçirilib. Respublikaya qayıdan ərazilərdə ümumilikdə 26 seçki məntəqəsi yaradılıb. Təsadüfi deyil ki, İlham Əliyev ailəsi ilə birgə Qarabağ iqtisadi rayonunun Xankəndi şəhərinə gələrək orada 122 saylı seçki dairəsinin 14 saylı yerli seçki məntəqəsində səs verib.

Qeyd edək ki, prezident seçkiləri 2025-ci ilin aprelində keçirilməli idi, lakin 2023-cü ilin dekabrında Prezident İlham Əliyev erkən səsvermənin fevralın 7-nə təyin edilməsi haqqında fərman imzalayıb. Hakimiyyət hazırkı prezidentin yeddi illik səlahiyyət müddəti başa çatana qədər səsvermənin təxirə salınmasının zəruriliyini Azərbaycanın ərazi bütövlüyünün bərpası, ölkədə və regionda yeni vəziyyətin yaranması ilə əsaslandırıb.

### Seçim də, favorit də bəlli idi

Seçkilərdə iştirak etmək üçün ilkin olaraq 17 iddiaçı olsa da, bülletendə yeddi namizədin adı qeyd edildi, onlardan 10-u qeydiyyat üçün tələb olunan 40 min səsi toplaya bilmədilər. Son seçkilərdə seçicilər 74,5 faiz fəallıqla İlham Əliyevə səs verib. Həm prezidentin tərəfdarları, həm də onun əleyhdarları növbədənkənar səsvermədən əvvəl etiraf etdilər ki, Ermənistanla münaqişə zəfərlə başa çatdıqdan sonra respublikada heç bir siyasi xadim onunla rəqabət apara bilməz. Amma kimsə müharibənin nəticələrini nəzərə almamaq qərarına gəlsə belə, Əliyevin 20 illik fəaliyyətinin nəticələri çox əhəmiyyətli idi.

Xəbər verdiyi kimi, 2003-cü ildən 2020-ci ilə qədər ölkənin ÜDM-nin orta artımı təxminən 8%-ə çatıb (maksimum 2006-cı ildə qeydə alınıb - 34,5%). Adambaşına düşən ÜDM-in özü bu illər ərzində 4,8 dəfə - 884 dollardan 4222 dollara qədər artıb. Dünya Bankının Azərbaycan əhalisinin bir neçə milyon nəfər artdığını qeyd etməsinə baxmayaraq, respublikanın hakimiyyət orqanları 2,7 milyondan çox yeni iş yerinin yaradılmasına nail olub. İşsizlərin sayını təxminən üçdə bir, yoxsulların sayını isə yeddi dəfə azaltmaq mümkün olub. Ölkənin strateji valyuta ehtiyatları 43 dəfə - 2003-cü ildəki 1,6 milyard dollardan 2023-cü ildə 68,5 milyard dollara qədər artıb. Əliyev yenidən seçiləcəyi təqdirdə ölkə iqtisadiyyatının modernləşdirilməsi və şaxələndirilməsi, dövlət xidmətləri sahəsində rəqəmsal texnologiyaların tətbiqi və özünün kosmik proqramının inkişafına diqqət yetirərək əvvəlki siyasətini davam etdirəcəyini vəd edib. Hazırda genişmiqyaslı mənzil tikintisi və müasir mühəndis infrastrukturunun yaradılmasının davam etdiyi Qarabağda normal həyatın bərpası xüsusi iş sahəsidir.

İlham Əliyevin rəqiblərinin əksəriyyətinin siyasi mübarizə təcrübəsi var. Məsələn, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının lideri Qüdrət Həsənquliyev artıq 5 dəfə prezident seçkilərində özünü sınayıb. Milli Məclisin deputatı, özünün namizədliyini irəli sürmüş Zahid Oruc - üç dəfə, Böyük Quruluş Partiyasının lideri Fazil Mustafa və Azərbaycan Liberal Demokrat Partiyasının keçmiş lideri, namizədliyini irəli sürmüş Fuad Əliyev - hərəyə iki dəfə bu yarışda iştirak ediblər. Milli Cəbhə Partiyasının lideri Razi Nurullayev və Böyük Azərbaycan Partiyasının lideri Elşad Musayev ilk dəfə olaraq dövlət başçısı postuna namizədliyini irəli sürüb.

Seçki kampaniyası cəmi 22 gün davam edib və həm yerli sakinlərin, həm də ölkəyə gələn beynəlxalq müşahidəçilərin qeyd etdiyi kimi, seçkilər son dərəcə sakit keçib. Müxalifət siyasətçiləri İlham Əliyevlə rəqabətin mənasızlığını başa düşdülər, amma bacardıqca təbliğat apardılar.

Ultrabənövşəyi işıqda seçicilər

Səsvermə ərəfəsində bütün namizədlərin plakatları küçələrdən



yığışdırılıb, yalnız Mərkəzi Seçki Komissiyasının təşviqat materialları qalıb. Məntəqələrdə vətəndaşları ultrabənövşəyi lampalarla komissiya əməkdaşları qarşılayıblar - gələnlərin sənədlərini yoxlayıblar, həm də əllərinə işıq saçıblar. Məsələ burasındadır ki, seçki bülleteni alan seçicilərin barmaqlarına ultrabənövşəyi işıqda parlayan xüsusi maye işarəsi qoyulub. Bir neçə seçki məntəqəsində təkrar səsvermənin baş verməməsi üçün belə tədbirlər görülür və belə boya izləri olan şəxs seçkiyə buraxılmayıb.

Azərbaycan Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun qeyd etdiyi kimi, partiya və ictimai təşkilatlardan 85 minə yaxın yerli fəal səsvermənin gedişini izləmək arzusunu ifadə edib və beləliklə, hər seçki məntəqəsində 15-ə qədər müşahidəçi olub. Həmçinin 800-ə yaxın beynəlxalq müşahidəçi, o cümlədən ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun 300-dən çox müşahidəçinin və MDB-nin baş katibi Sergey Lebedevin rəhbərlik etdiyi Müstəqil Dövlətlər Birliyi ölkələrindən 170-ə yaxın ekspertin daxil olduğu missiyasının nümayəndələri də qeydə alınıb.

O, Bakı Muzey Mərkəzində 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 38 saylı seçki məntəqəsində deyib: "Seçkilər müsabiqə əsasında keçirilib, namizədlərin əksəriyyətinin əvvəllər seçkiqabağı təşviqatda iştirak təcrübəsi olub. "Biz kampaniyanın necə getdiyini izlədik - bütün namizədlərə həm televiziyada, həm də çap mediasında bərabər imkanlar verildi, bu çox vacibdir".

Kifayət qədər proqnozlaşdırıla bilən situasiyaya görə, komissiyaların nümayəndələrinin və müşahidəçilərin bu dəfə çox sadə tapşırığı var idi - görünür, heç kim favoritin, o cümlədən rəqiblərinə səs verənlərin qələbəsinə şübhə etmirdi. Belə ki, seçki məntəqələrində vəziyyət son dərəcə sakit idi.

Günün birinci yarısında rusiyalı müxbirinin baş çəkə bildiyi bütün seçki məntəqələrində seçicilər bülleten almaq üçün növbələrdə dayanıblar. Qeyd edək ki, Azərbaycanın seçici siyahısına 6537 seçki məntəqəsində səs verən 6,4 milyondan çox insan daxildir.

Seçkilərin gedişini müşahidə etmək üçün müxtəlif ölkələrdən, o cümlədən Afrika ölkələrindən ictimai təşkilatların nümayəndələri Azərbaycana gəliblər. 7 saylı Səbail seçki dairəsinin 8 saylı seçki məntəqəsində yerli fəallarla yanaşı, Afrikadan olan beynəlxalq qrup da olub. Tanzaniyadan gəlmiş Qoşulmama Hərəkatının Gənclik Şəbəkəsinin müşahidəçisi Cessika Mşama xüsusilə qeyd edir ki, seçicilərin fəallığından heyran qalır - həm gənclər, həm də yaşlı insanlar səhər saatlarında seçki məntəqəsinə gəlirlər. Seçimlərini açıq-aydın şüurlu şəkildə edənlər kimin tərəfdarı olduqlarına dair müəyyən bir təsəvvürə sahibdirlər. Bəzi seçki məntəqələrində "exit-poll" keçirmək üçün xüsusi konteynerlər var idi - istəyənlər orada necə səs verdikləri barədə məlumat qoya bilərdilər. "Nezavisimaya Qazeta"-nın müxbiri ilə danışmağa razı olan şəhər sakinləri İlham



Əliyevin xeyrinə seçim etdiklərini qeyd ediblər. Məsələn, Elmin adlı Bakı sakini: "Prezident 44 gün ərzində hamının 30 ilə yaxındır gözlədiyinə nail ola bildi, bu, tarixi hadisədir və özü də tarixə düşəcək, ona görə də bu seçkilərdə onun mahiyyətcə rəqibi yoxdur", - deyə qeyd edib.

25 il xalq deputatı olan, 10 ildir ki, səsvermənin təşkili ilə məşğul olan müşahidəçi Hacı Mirzə Babayev: "Bu il görürəm ki, insanlar seçkilərə fərqli əhval-ruhiyyə ilə gəlirlər. Qarabağın qayıdışı ona gətirib çıxarıb ki, insanlar daha ruhlanır və seçkilərdə daha fəaldırlar, bunu yüksək fəallıq göstərir", deyə bildirib.

Səsvermənin gedişini müşahidə edən rusiyalı politoloq Sergey Markov deyir: "Seçkilər Azərbaycan qanunvericiliyinə uyğun və ədalətli səsvermənin necə olması barədə bütün fikirlərlə keçirilib, Azərbaycan xalqının iradəsini əks etdirir. Seçkilərin çoxluğu təkcə onunla izah olunur ki, bunlar politoloqların dediyi kimi, "referendum tipli" seçkilər deyil, həm də insanların böyük ölçüdə "qələbəyə" səs verməsi – səsvermə yolu ilə seçkiləri dəstəkləməsi ilə izah olunur. Qarabağı qaytara bilmiş namizədi bundan sonra da dəstəkləyəcəklərini bildirirlər".

Seçicilərin seçki bülletenində seçim hüququ var idi, lakin siyasətçilərin heç biri hazırkı prezidentlə ciddi rəqabət apara bilmədi.

Azərbaycan Mərkəzi Seçki Komissiyasının məlumatına görə, saat 12:00-a olan məlumata görə, seçicilərin 38,6 faizi seçkilərdə iştirak edib. Saat 17:00-a qədər seçici fəallığı artıq 70,8%-dən çox olub və proses başa çatdıqdan dərhal sonra Mərkəzi Seçki Komissiyası seçicilərin 76,7%-nin səs verdiyini bildirib.

Səsvermənin bitməsinə bir saat qalmış "exit-poll" keçirmiş Amerikanın "Oracle Advisory Group" şirkətinin nümayəndələri öz işlərinin nəticələrini açıqlayıblar. Fevralın 7-də ölkə daxilində 63 min seçici arasında sorğu keçiriblər. Əldə edilən nəticələrə görə, İlham Əliyev 93,9 faiz, Zahid Oruc 1,8 faiz, Fazil Mustafa 1,5 faiz, Qüdrət Həsənquliyev 1,2 faiz, Razi Nurullayev 0,9 faiz, Elşad Musayev 0, 4 faiz, Fuad Əliyev 0,3% səs toplayıb. Digər şirkətlərin exit-polları təxminən eyni nəticə verib – "Rəy" Monitorinq Mərkəzinin məlumatına görə, İlham Əliyev 92,6%, Razi Nurullayev (1,1%), Fuad Əliyev (0,8%), Fazil Mustafa (0,5%), Qüdrət Həsənquliyev (0,4%), Zahid Oruc (0,3%) və Elşad Musayev (0,1%) səs toplayıb.

Səsvermə başa çatdıqdan bir neçə saat sonra isə Mərkəzi Seçki Komissiyası prezident seçkilərinin ilkin nəticələrini açıqlayıb: İlham Əliyev 92,03 faiz, Zahid Oruc 2,2 faiz, Fazil Mustafa 1,9 faiz, Qüdrət Həsənquliyev 1,7 faiz, Razi Nurullayev 0,7 faiz, Elşad Musayev - 0,6 faiz, Fuad Əliyev - 0,48%. Onun həmkarları İlham Əliyevin qələbəsinə şübhə etmirdilər. Birincilər arasında, hətta səsvermənin nəticələrinin rəsmi yekunlaşmasından əvvəl Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Macarıstanın Baş naziri Viktor Orban, Belarus Prezidenti Aleksandr Lukaşenko, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, İraq Prezidenti Əbdül Əbdüllətif Camal Rəşid, Serbiyanın Prezidenti Aleksandr Vuçiç Azərbaycan dövlətinin başçısını yenidən prezident seçilməsi münasibətilə təbrik edən ilk şəxslər arasında olub.

Beləliklə, xalq onu qələbələrə aparan Lideri ilə daha 7 il birgə yürümək, gələcəyə doğru addımlamaq yolunu seçdi.

**V.VƏLİYEV**

ANALİTİK

# Azərbaycanı zəfərdən-zəfərə aparan GÜCLÜ LİDER, QALİB SƏRKƏRDƏ!




***Azərbaycan tarixinin səhifəsinə yazılan 7 fevral ölkəmizdə keçirilən növbədənkənar prezident seçkiləri müdrik xalqımızın yekdilliyi, həmrəyliyi ilə yeni tariximizə möhrünü vurdu. Hamılıqla, həmrəyliklə hər kəs seçki məntəqələrinə üz tutaraq öz tarixi seçimini edərək bir daha inkişafa, tərəqqiyə, sabitliyə, əmin-amanlığa səs verdilər. Bu səs Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasətə verilən səs idi. Bu seçkilər Azərbaycan üçün tam bir demokratik bayram oldu.***

İlk dəfə seçkilər Azərbaycanın bütün ərazilərində keçirildi. Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artıraraq, xalqın güzəranını və rifahını dönmədən yüksəldərək, ərazi bütövlüyümüzü təmin edərək və suverenliyimizə imza ataraq xalqın alternativsiz Liderinə çevrilib. Bu gün isə Azərbaycan öz qüdrətli Liderinin uzaqgörən, qətiyyətli siyasəti ilə regionda yaranmış yeni reallıqlar fonunda daha möhtəşəm gələcəyə doğru inamla addımlayır. 30 ildən sonra ilk dəfə olaraq ərazi bütövlüyümüz tam təmin edilmiş şəkildə seçki keçirildi və bu seçki bütün ölkə ərazisini əhatə etdi. Keçmiş məcburi köçkünlər yurdlarında seçici olaraq səs verdilər. Bu da daha bir tarixi hadisəyə çevrildi.

### "BİR MİLLƏT, İKİ DÖVLƏT" PRİNSİPİ ƏSASINDA ÖLKƏLƏRİMİZ VƏ XALQLARIMIZ BUNDAN SONRA DA ÇİYİN-ÇİYİNƏ İRƏLİ GEDƏCƏKLƏR

Seçkilərdəki qalibiyyət Azərbaycana dost və qardaş olan olan ölkələrin də sevincinə səbəb olub. Azərbaycan Prezidenti İlham Əliyevə gələn dost təbrikləri bunun bir daha nümunəsidir. Fevralın 7-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Türkiyə Prezidenti İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə səmimi-qəlbdən təbrik edib, ölkəmizin daha da inkişaf etdirilməsi və xalqımızın rifahı naminə prezidentlik fəaliyyətində ona yeni uğurlar arzulayıb. Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısının rəhbərliyi ilə Vətən müharibəsində Azərbaycanın Qələbə çalmasının və suverenliyimizin tam bərpa olunmasının böyük önəm daşıdığını bir daha vurğulayıb, bu xüsusda Azərbaycanda prezident seçkilərinin bütün ölkə ərazisində keçirilməsi münasibətilə də təbriklərini çatdırıb. Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan-Türkiyə dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə gələcəkdə də inkişaf edəcəyinə və möhkəmlənəcəyinə, "Bir millət, iki dövlət" prinsipi əsasında ölkələrimizin və xalqlarımızın bundan sonra da çiyin-çiyinə irəli gedəcəklərinə əminliklərini ifadə ediblər.

Telefon söhbəti zamanı əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi aparılıb.Son iyirmi ildə müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın yürütdüyü siyasət, ölkəmizin etibarlı və strateji tərəfdaş kimi, nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Müstəqil dövlətimizdə kənd təsərrüfatında, kosmik sənayedə, hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə olunan uğurlar, eləcə də, beynəlxalq səviyyədə qurduğu münasibətlər, davamlı inkişaf əldə olunan nailiyyətlərdir. Müasir dövrün qlobal çağırışlarına dəstək verən Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq imkanlarına malikdir. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib.

### AZƏRBAYCAN VƏ RUS XALQINI TARİXİ, SİYASİ, MƏDƏNİ, SOSİAL BAĞLAR BAĞLAYIR

Azərbaycanla Rusiya arasında münasibətlər və əlaqələr də uzun bir tarixi dövrü, yüzillikləri əhatə edir. Bu iki ölkəni, Azərbaycan və rus xalqını təkcə sərhədlər deyil, həm də tarixi, siyasi, mədəni, sosial bağlar bir-birinə bağlayır, birləşdirir.

Fevralın 8-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edərək İlham Əliyevə prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırıb, ona Azərbaycanın inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb. Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Vladimir Putinə minnətdarlığını ifadə edib. Dövlət başçıları müttəfiqlik və strateji tərəfdaşlıq əlaqələrimizin müxtəlif sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildirib, əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə ediblər.

Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Bütün bu və ya digər amillər müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəkliklərdir. Müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər gerçəkləşib. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər verməiş oldu. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir.

### AZƏRBAYCAN VƏ ÖZBƏKİSTANI BİRLƏŞDİRƏN DOSTLUQ VƏ QARDAŞLIQ ƏLAQƏLƏRİ

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edərək dövlətimizin başçısını prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik edib. Şavkat Mirziyoyev Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkəmizin böyük nailiyyətlər qazanmasının və Azərbaycan torpaqlarının geri qaytarılmasının önəmini bir daha vurğulayıb. Telefon söhbəti zamanı dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə və əməkdaşlığımızın daha da möhkəmlənəcəyinə əmin olduqlarını bildiriblər, ikitərəfli münasibətlərin perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.

Əlbəttə ki, Prezident İlham Əliyevin dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Azərbaycan Prezidenti təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur. Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət həyata keçirir. Azərbaycan Prezidenti sübut edir ki, liderin malik olduğu nüfuz özündə şəxsi keyfiyyətlərin, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir.

### DOSTLUQ VƏ QARDAŞLIQ MÜNASİBƏTLƏRİNİN DAHA BİR NÜMUNƏSİ

Daha bir təbrik Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə gəlib. Belə ki, Emoməli Rəhmon İlham Əliyevə zəng edərək prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik edib, ona ölkəmizin inkişafı və xalqımızın rifahı naminə fəaliyyətində uğurlar arzulayıb. Tacikistan dövlətinin başçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin son illər bütün sahələrdə böyük nailiyyətlər qazanmasının və Azərbaycanın dünyada nüfuzunun daha da artmasının əhəmiyyətini vurğulayıb. Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə edib.Azərbaycan və Tacikistan prezidentləri dostluq və qardaşlıq münasibətlərimizin bundan sonra da inkişaf edəcəyinə əmin olduqlarını bildirərək əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

### ÇİN-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ ÖZ İNKİŞAFININ NÜMUNƏVİ VƏ SABİT OLMASI İLƏ FƏRQLƏNİR

"Mən Çin-Azərbaycan münasibətlərinə böyük əhəmiyyət verirəm, bizim işgüzar münasibətlərimizi və şəxsi dostluğumuzu yüksək qiymətləndirirəm. Sizinlə birlikdə ikitərəfli münasibətlərin inkişafı və bütün sahələrdə əməkdaşlığın yeni səviyyəyə yüksəldilməsində birgə səylər göstərməyə hazıram". Bu fikirlər Çin Xalq Respublikasının Sədri Si Cinpinin fevralın 7-də növbədənkənar prezident seçkilərində qələbə qazanan Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubunda yer alıb. Çin lideri dövlətimizin başçısını yenidən Azərbaycan Prezidenti seçilməsi münasibətilə Çin hökuməti və xalqı adından, həmçinin şəxsən öz adından təbrik edib. O, Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün dövlət quruculuğu təşəbbüslərində yeni nailiyyətlər əldə edəcəyinə əminliyini vurğulayıb. Çin lideri "Son illər Çin-Azərbaycan münasibətləri öz inkişafının nümunəvi və sabit olması ilə fərqlənir. Yüksək səviyyəli siyasi etimad mühiti yaranır", - deyən Si Cinpin əlavə edib ki, "Bir kəmər, bir yol" təşəbbüsünün birlikdə həyata keçirilməsində irəliləyiş, beynəlxalq münasibətlərdə sıx qarşılıqlı fəaliyyət müşahidə olunur.

Azərbaycan bayrağının işğaldan azad olunan torpaqlarımızda ucaldılmasını hər kəsin 30 ilə yaxın bir zamanda gözlədiyi möhtəşəm hadisədir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi bizim ölkəmiz üçün yeni dövr başlayır: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq".

Prezident İlham Əliyevin ölkəmizə növbəti yeddi ildə rəhbərliyi ilə bizi ötən 20 ildə əldə edilmiş nailiyyətlərin davamı ilə yanaşı, fəth ediləcək daha uca zirvələr, böyük hədəflər gözləyir. Bu, indikindən də qüdrətli, bütün sahələr üzrə hərtərəfli inkişaf etmiş, güclü iqtisadiyyata sahib müstəqil Azərbaycan olacaq. Bu gün Azərbaycan qalib dövlətdir. Xalq-iqtidar birliyi bizi zəfərə, qələbədən qələbə aparır.

***Zümrüd BAYRAMOVA***






# NAXÇIVAN: 5000 illik tarix, 100 illik muxtariyyət

***9 fevral beşminillik tarixin ərmağanı olan qədim Naxçıvanın 100 il öncə muxtariyyət statusu aldığı gündür. Artıq 100 ildir ki, Naxçıvan muxtar respublika kimi yaşayır. Doğma Naxçıvanımızın muxtariyyətindən söhbət açılanda möhtəşəm tariximizin səhifələri vərəqlənir, naxçıvanlıların bu səhifələrin hər birinə həkk etdikləri misilsiz torpaq sevgisi, yurda sahiblik hissi qürur yaradır.***





Bu səhifələrdə ötən əsrin əvvəllərində Azərbaycanda, eləcə də bu diyarda yaranan gərgin vəziyyət, tarixin bütün dönəmlərində olduğu kimi, yenə də erməni daşnaklarının min bir hiyləsinə qarşı mübarizələr apararaq Naxçıvanı qoruyub saxlamaq kimi əzmkarlıq salnamələşib. Bu səhifələrdə 1918-ci ilin noyabrında yaradılan, paytaxtı Naxçıvan olan Araz-Türk Respublikası yer alır. Sahəsi 8,7 min kvadrat¬kilometr, əhalisi bir milyon nəfərdən artıq Araz-Türk Respublikası.

Bu səhifələrdə 70 illik imperiyanın ilk addımı olaraq yenicə əsarəti altına saldığı ölkələrdən biri kimi Azərbaycandan Zəngəzuru qoparıb ermənilərə verməsi, bununla da Naxçıvanı mənsub olduğu vətəndən ayırması, diyarımız üçün muxtariyyətdən başqa yol qoymaması yer alır. Nəhayət, 1918-1924-cü illər arasında cərəyan edən siyasi hadisələr, Gümrü, Moskva, Qars müqavilələri, referendumlar 1924-cü il fevralın 9-da Azərbaycan MİK-in Naxçıvan MSSR-in yaradılması haqqında qərar verməsi ilə nəticələndi. Elə muxtariyyət tarixinin ən şanlı səhifəsini də mənfur düşmənin Naxçıvanı Azərbaycandan qopara bilməməsi təşkil edir. Çünki naxçıvanlılar Naxçıvanı hər zaman göz bəbəyi, bir ata-ananın övladını qoruması tək qorumuşlar.

Prezident İlham Əliyev: Naxçıvan Azərbaycanın qədim diyarıdır. Əfsuslar olsun ki, 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Qərbi Zəngəzur Azərbaycandan ayrılmışdır və beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında coğrafi bağlantı kəsilmişdir. Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini aparmağa başlayanda Naxçıvana qarşı da onların ərazi iddiaları var idi. Burada da şiddətli döyüşlər gedirdi və məhz o vaxt Azərbaycanın böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə, - o zaman o, Naxçıvanın başçısı idi, - Naxçıvan düşməni yerinə oturtdu və öz ərazisini qoruya bildi. Ancaq o vaxt Naxçıvanın enerji təminatı Azərbaycanın əsas hissəsindən olduğu üçün Ermənistan bütün elektrik və qaz xətlərini kəsmişdi və Naxçıvan faktiki olaraq mühasirədə idi. İşıq yox, qaz yox, qışlar da çox soyuq keçir və 15 il Naxçıvan qazsız yaşamışdır.

## Naxçıvan həmişə düşmənin niyyəti olub

100 illik muxtariyyət tarixinə nəzər salarkən ayrı-ayrı dönəmlərdə hər an Naxçıvana uzanan əllər, bu qədim torpağın həmişə düşmənin pis niyyəti olduğu görünür. Naxçıvan iştahasında olub bu qədim diyara sahiblənmək istəyən mənfur qonşumuz arzusundan vaz keçmir, bu istəklərini qeri-nədən-qərinəyə, əsrdən-əsrə daşıyır.

100 ilin son 33 ili. Nədir bu 33? Naxçıvan gözlərinə dağ olanların qədim diyarı blokadaya saldıqları tarixdən bəri yaşanan illərdir. 100 ilin ən çətin, keşməkeşli və eyni zamanda, qürurverici, dünyanı heyrətə gətirən illəridir.

Bu, bir faktdır ki, blokadanın ilk illəri Naxçıvan üçün çox ağır oldu. Qarabağ problemindən daha çox əziyyət çəkən Naxçıvan, Umummilli Liderimiz Heydər Əliyevin təbirincə desək, "Taleyin ümidinə buraxılmış tənha bir ada"nı xatırladırdı. Ölkəyə yeganə quru yolla çıxış olan dəmir yolunun fəaliyyətinin dayandırılması, hava yolunda problemlərin yaradılması, naxçıvanlıların paytaxtla və Vətənin başqa bölgələri ilə əlaqələrinin tamamilə kəsilməsi muxtar respublikanı hərbi blokadaya məruz qoydu. Elektrik və təbii qaz xətlərinin ermənilər tərəfindən qırılıb-dağıdılması nəticəsində Naxçıvan işıqsız və qazsız qaldı. Ərzaq qıtlığı yarandı.

Yadımdadır, blokadanın ilk illəri muxtar respublikada yağ, qənd, çay, əsasən də, çörək qıtlığı insanları, necə deyərlər, imtahana çəkirdi. Saat¬larla çörək növbələri yaranırdı. Qışda soyuqdan qorunmaq üçün camaat əlacsız qalıb həyətlərindəki meyvə ağaclarını belə, doğrayıb yandırırdılar. Bununla Naxçıvan iqtisadi blokada həyatını yaşamağa məcbur edilmişdi. Elektrik enerjisinin olmaması televiziya vasitəsilə ölkə xəbərlərinin izlənməsinə, dəmir yolunun bağlanması Naxçıvana dövri mətbuatın gətirilməsinə çətinlik yaratmışdı. Bununla da əhali siyasi və informasiya blokadasına alınmışdı.

## "Şərqin qapısı"nı Ulu Öndər xilas etdi

Yuxarıda sadalananlar Naxçıvana ermənilər tərəfindən blokadanın bütün növlərinin tətbiqini təsdiq edən faktlardır. Artıq 33 ildir ki, Naxçıvan blokada şəraitində yaşayır. Blokadanın ilk illəri ermənilər, yəqin ki, hərtərəfli blokada ilə Naxçıvanın "taleyinin" üstündən bir xətt çəkdiklərini düşünür, bununla gündən-günə Naxçıvanın zəifləyəcəyini, tənəzzül edəcəyini, bu qədim diyara asanlıqla yiyələnib torpaqlarına qatacaqlarını, "Şərqin qapısı"nın sahibi olacaqlarını xəyal edirdilər.

Ümummilli Liderimiz Heydər Əliyev blokadanın ən ağır günlərində Naxçıvana gəldi. Bu gəliş erməniləri çox məyus etdi. Naxçıvana blokadanın bütün növlərini tətbiq edib nəticəsini səbirsizliklə gözləyənlər üçün, təbii ki, Ulu Öndərin Naxçıvana gəlməsi heç də yaxşı bir xəbər ola bilməzdi. Söz yox ki, onlar yaxşı başa düşürdülər ki, dahi şəxsiyyət naxçıvanlıların çıxış yolu olacaqdır.

Bu, həqiqətən də, belə oldu. Ulu Öndər naxçıvanlılarla birlikdə qaranlıq gecələrdə çıraq işığında əyləşdi, çıraq işığında Naxçıvanı labüd vəziyyətdən çıxarmaq üçün qərarlar verdi. Soyuq otaqlarda gecələməli oldu. Lakin bütün bunlar müvəqqəti çətinliklər idi. Çünki qarşıda Naxçıvanın dünya tarixinin səhifələrinə düşəcək blokadalı-inkişaflı, inkişaflı-intibahlı günləri başlayırdı. Ermənilər, yəqin, düşünməyibmiş ki, bizim başqa qonşularımız da var, həm də onlarla müqayisə olunmayan qonşularımız. Bizim siyasi aləmdə sözü keçərli şəxsiyyətimiz var. Və onun siyasi addımları ilə Naxçıvan çıxış yolunu tapacaqdır.





Beləliklə, labüd olan yolların hər birindən böyük siyasi bacarıqla istifadə edən Ulu Öndər Naxçıvanın blokadasını yara bildi. Muxtar respublikanın elektrik enerjisi və ərzaqla təmin olunması istiqamətində qonşu Türkiyə və İran ilə razılıq əldə edildi. Elektrik enerjisi fasilələrlə verilsə də, ərzaq insanların tələbatından az olsa da, əsas məsələ onların mənəvi sarsıntısının aradan qaldırılması, bir sözlə, yaşamaları oldu.

2021-ci ilin 10 mayında Naxçıvan Muxtar Respublikasına səfəri zamanı dövlətimizin başçısı Azərbaycan televiziyasına verdiyi müsahibədə 1990-cı ilin Naxçıvanı ilə bağlı dəyərli fikirlərini ifadə etmişdir: ...O vaxt hakimiyyətdə olan AXC-Müsavat cütlüyü bütün imkanları səfərbər etmişdi ki, Naxçıvanda Heydər Əliyevi devirsinlər, öz marionetlərini gətirsinlər və faktiki olaraq Naxçıvanı da ermənilərə bağışlasınlar. Onlar buna da hazır idilər, təki Heydər Əliyev amili Azərbaycan siyasətindən götürülsün. Ancaq Ulu Öndərin qətiyyəti, cəsarəti, siyasi müdrikliyi, naxçıvanlıların fədakarlığı bütün bu planları – ermənilərin və AXC-Müsavat cütlüyünün planlarını altüst etmişdir və Naxçıvanı Heydər Əliyev qorumuşdur, necə ki, ondan sonra Azərbaycanı böyük bəlalardan qoruya bildi. 1993-cü ildə ölkəmiz demək olar ki, parçalanırdı, vətəndaş müharibəsi gedirdi və məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində biz bu ağır sınaqdan üzüağ çıxa bildik. Məhz bugünkü Zəfərin təməli, bax, o vaxt qoyulmuşdur.

## Blokada Naxçıvanı düşmənə meydan oxudu

İllər ötdükcə Naxçıvan məhv olma¬ması, yaşaması ilə düşmənin gözdağına çevrildi. Blokada Naxçıvanı informasiya blokadasını yarıb səsini dünyaya yaydı. Mənsub olduğu ölkə¬nin rəhbərliyinin cəsarət edib toxuna bilmədiyi məsələlərə toxundu. 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin dahi şəxsiyyət Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul edilməsi haqqında tarixi qərar imzalandı. Dahi şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet sosialist" sözləri çıxarıldı. Azərbaycanın müstəqilliyinə gedən yol Naxçıvandan başlandı. Bu yolun bələdçisi isə Ulu Öndərimiz Heydər Əliyev idi. 1991-ci ildə qazandığımız və 1920-ci ildəki kimi itirilmək təhlükəsi qarşısında olan müstəqilliyimiz məhz Ümummilli Liderimizin sayəsində xalqa bəxş olundu.

Bütün bunlar həm də blokadanın ilk illərində burada gələcək üçün blokada və inkişaf mərhələsinin qığılcımları idi. Zamanın hökmü, diktəsi tarixə növbəti bir yeniliyi bəxş etməkdə idi ki, bu barədə ermənilər düşünə belə, bilməzdilər. Bu yenilik blokada ilə inkişafın illər sonra tarixin səhifələrinə həkk olunması idi. Və bu yenilik ondan ibarət idi ki, blokada ilə inkişaf sözləri tarixin heç bir dönəmində bir araya gəlmə¬miş, qoşa səslənməmişdi.

## 20 ildə 16 dəfə

Ulu Öndərimizin bir arzusu vardı: "İstəyirəm mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin". Müstəqillik illərinin hər anında bu sözlər başlıca məqsəd olub və muxtar respublikanın ötən 20 il ərzində hərtərəfli inkişafı sırf bu prinsipin bəhrəsidir. Görülən bütün işlər Ümummilli Liderimizin istəklərini həyata keçirməkdən qaynaqlanıb.

Böyük qürurla söyləyə bilərik ki, dövlətimizin bütün bölgələrimiz kimi, Naxçıvan Muxtar Rerspublikasına da göstərdiyi diqqət və qayğı nəticəsində Naxçıvanın son 20 illik tarixinə bu ifadələr həkk olub: inkişaf.

Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyəti dövründə 16 dəfə muxtar respublikaya səfər edib, Onun iştirakı ilə 100-ə yaxın təhsil, səhiyyə, idman və mədəniyyət müəssisələri, istehsal sahələri və hərbi təyinatlı obyektlər istifadəyə verilib.

Dövlətimizin başçısının rəhbərliyi ilə müxtəlif istiqamətləri əhatə edən Dövlət proqramlarının uğurlu icrası Naxçıvan Muxtar Respublikasının da bütün sahələrin inkişafına geniş imkanlar açıb. 2003-cü ildən ötən dövrdə muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi 16 dəfə, sənaye məhsulunun həcmi 56 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi 7,5 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 13 dəfə artıb. Muxtar respublikada 183 elm və təhsil ocağı, 304 mədəniyyət obyekti, 217 səhiyyə obyekti, 23 idman obyekti, 327 inzibati bina, 1089 istehsal və xidmət sahəsi tikilərək, 155 elm və təhsil ocağı, 178 mədəniyyət obyekti, 59 səhiyyə obyekti, 23 idman obyekti, 254 inzibati bina, 2218 kilometr yol yenidən qurularaq sakinlərin istifadəsinə verilib, 78 mindən artıq yeni iş yerləri açılıb.

Naxçıvan bu gün dünyanın ən inkişaf etmiş regionları sırasındadır. Lakin bir fərq var: Naxçıvan bu intibaha blokada şəraitində nail olub. Deməli, məqsəd və prinsip olan yerdə blokada belə, əngəl yarada bilmirmiş.

Ötən 20 ildə muxtar respublikada elektroenergetika infrastrukturunun müasirləşdirilməsi, təbii qaz təchizatı, alternativ və bərpa olunan enerji mənbələri ilə bağlı mühüm layihələrin reallaşdırılması enerji təhlükəsizliyini təmin edib. Əgər 2003-cü ilin sonuna muxtar respublikada 1 elektrik stansiyası fəaliyyət göstərirdisə, 2020-ci ildə bu göstərici 9-a çatdırılıb. Bir zamanlar enerji idxal edən Naxçıvan artıq enerji ixrac edən bir diyara çevrilib. 2005-ci ildə Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi isə yaşayış məntəqələrini tam qazlaşdırıb.

## Yeni Dövlət Proqramı Naxçıvanın daha da inkişafına hesablanıb

2004-cü ildən etibarən qəbul edilmiş 4 dövlət proqramında nəzərdə tutulan tədbirlərin icrası Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafı, yeni iş yerlərinin və müəssisələrin yaradılması, kommunal və sosial infrastruktur təminatı səviyyəsinin yüksəlməsi ilə nəticələnmişdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamı inkişafın yeni mərhələsinə hesablanmışdır. Dövlət proqramının sosial sfera üzrə əhəmiyyətli hesab olunacaq məqsədləri içərisində təhsil, səhiyyə, mədəniyyət və idman sahələrində göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi kimi məsələlər olduqca əhəmiyyətli olacaqdır. Bu istiqamətlər üzrə kadr hazırlığının diqqətdə saxlanılmasına da diqqət göstərilməkdədir.

Dövlət Proqramında eyni zamanda, "ASAN xidmət", "DOST" və digər mərkəzlərin fəaliyyətə başlaması və bu istiqamətdə dövlət xidmətlərinə əlçatanlığın təmin olunmasından, təbii ehtiyatlar hesabına hasilat sənayesinin perspektivliliyinin artırılmasından, xammala etibar etmiş olan yeni sənaye sahələrinin yaradılmasından, mövcud olanların fəaliyyətinin daha da gücləndirilməsindən, həmçinin, ayrı-ayrı sahələrdə güzəştlərin tətbiqinin nəzərdə tutulduğu sənaye zonasının yaradılmasından ibarət olan dayanıqlı sosial-iqtisadi inkişaf mühitinin təşəkkülü hədəflənmişdir.

Proqramın əsas qayələrindən biri də sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırmaq, azad iqtisadi zona yaratmaqla Naxçıvanı əsas sərmayə mərkəzinə çevirməkdir. Xarici və yerli investorların Naxçıvan muxtar respublikanın iqtisadi potensialı, investisiya imkanları ilə yaxından tanış olmaları sözsüz ki, yeni investisiyaların yatırılması baxımından təkan rolunu oynayacaq.

Dövlət Proqramının ümumi məqsədi davamlı iqtisadi artımın təmin olunması və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir.

## Zəngəzur dəhlizi Naxçıvana gedən yolları açacaq

Dövlətimizin başçısı 2021-ci ildə Naxçıvana səfəri çərçivəsində Azərbaycan televiziyasına verdiyi müsahibədə Zəngəzur dəhlizinin açılması ilə əlaqədar deyirdi: - Mən təsadüfən Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan təqribən 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki, açılmalıdır və açılacaqdır.

Bildiyiniz kimi, 10 noyabr tarixli birgə Bəyanatda bu, təsbit edilib. Ondan sonra fəaliyyət göstərən Azərbaycan-Ermənistan-Rusiya Baş nazirlərinin müavinləri səviyyəsində işçi qrupunun keçirilmiş iclaslarında da artıq bu məsələ ilə bağlı çox ciddi addımlar atılır. Əminliklə deyə bilərəm ki, dəmir yolu dəhlizi açılacaqdır. Heç kimdə bu haqda şübhə olmasın. Əlbəttə ki, Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək. Bildiyiniz kimi, mən Horadiz-Ağbənd dəmir yolunun təməl daşını qoydum. Burada çatışmayan 15-16 kilometrlik hissə inşa ediləcəkdir, Ordubaddan Ermənistan sərhədinə qədər. Naxçıvan dəmir yolu fəaliyyət göstərir, indi həm sərnişin, həm yük daşımaları həyata keçirilir. Yəni, Azərbaycan ərazisində Horadiz-Ağbənd dəmir yolu tikiləndən sonra bütün infrastruktur yaradılacaqdır.

O ki qaldı, Ermənistan ərazisində olan hissəyə, bildiyiniz kimi, Ermənistan dəmir yolları anlayışı yoxdur. Rusiya dəmir yolları bütün Ermənistanın dəmir yollarına sahibdir. Deməli, Ermənistan dəmir yolları ona məxsusdur. Ona görə biz bu məsələni daha çox Rusiya tərəfi ilə müzakirə edirik. Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq. Əminəm ki, bu, olacaqdır, məndə heç bir şübhə yoxdur. Bir daha demək istəyirəm ki, Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək və əlindən gələni edəcək ki, bu layihənin həyata keçirilməsində heç bir problem olmasın.

Beləliklə, yeni iqtisadi reallıqlar müstəvisində Zəngəzur dəhlizinin istismara verilməsindən sonrakı mərhələdə əhalinin rifah göstəricilərinə, məşğulluq təminatının gücləndirilməsinə, muxtar respublika əhalisi ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhalisi arasında ikitərəfli ticarət münasibətlərinin inkişaf perspektivlərinə də təminat yaradılmış olacaq.

***

Bugünkü Naxçıvan Ümummilli Liderimizin başladığı siyasətin dövlətimizin uğurla davam etdirməsinin təntənəsidir. Beşminillik tarixə malik olan qədim yurd yüzillik muxtariyyəti ilə bütövlükdə varlığını qoruyan, məğrurluğunu nümayiş etdirən qədim Azərbaycan torpağıdır. Ötən bir əsrin bir qərinəsini blokada şəraitində yaşamasa da bu məğrurluğa əsla xələl gətirə bilmədi. Bayramın mübarək, Naxçıvan! Zəfərli Azərbaycanın qarşısında açılan yeni dövr sənə gələn yolları açılmasını, Qarabağ və Şərqi Zəngəzur kimi anan Azərbaycana qovuşmağını tezliklə reallaşdıracaq.

***Mətanət Məmmədova***

# Türkdilli dövlətlər arasında səmərəli və etibarlı siyasi dialoq

***Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycan xarici siyasətinin əsas prioritetlərindən biridir. Etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz münasibətlərimizin təməlini daha da möhkəmləndirib. Son illər türkdilli dövlətlər arasında qurulan əməkdaşlıq daha da güclənmiş və yeni, daha düşünülmüş, praqmatik mərhələsinə start verilib.***

Qeyd edək ki, bu gün türkdilli ölkələrin siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərir. Türkdilli dövlətlər arasında səmərəli, etibarlı siyasi dialoq qurulub, bütün sahələrdə hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilir. Türkdilli ölkələrin vahid platformada birləşməsi bu ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafına təkandır. Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul etməsi bu əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcəkdir.Seçkilərdə inamlı qələbəsi münasibətilə Prezident İlham Əliyevə Türk Dövlətləri Təşkilatı adından təbriklərini çatdıran Kubanıçbek Ömüralıyev təşkilatın geniş müşahidə missiyası ilə bu seçkiləri müşahidə etdiklərini, Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Şuşada, Xankəndidə və azad edilmiş digər ərazilərdə olduqlarını, TDT ailəsinə daxil olan başqa təsisatlarla əlaqələndirilmiş şəkildə bu seçki prosesini müşahidə etdiklərini vurğulayıb. Qonaq seçkilərin çox mükəmməl və peşəkarlıqla təşkil olunduğunu qeyd edib. TDT-nin Baş katibi şanlı Qarabağ Zəfəri və ölkəmizin ərazi bütövlüyünün tam təmin olunması ilə əlaqədar Azərbaycan xalqının bu seçkilərdə xüsusi əhvali-ruhiyyə ilə seçki hüquqlarından istifadə etdiklərini bildirib.

### ƏMƏKDAŞLIQ VƏ TƏRƏFDAŞLIĞI DAHA DA GÜCLƏNDİRƏCƏK YENİ LAYİHƏLƏR

Prezident İlham Əliyev TDT-nin müşahidə missiyasının bütün üzvlərinə seçkiləri müşahidə etdiklərinə görə minnətdarlığını bildirib. Kubanıçbek Ömüralıyev qeyd edib ki, Azərbaycan Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya prosesinə və tərəfdaşlığın daha da yüksəlməsinə daim öz töhfələrini verir. Görüşdə bu il Azərbaycanda TDT-nin qeyri-rəsmi Zirvə toplantısının keçiriləcəyi məmnuniyyətlə qeyd edilib. Təşkilatın bundan sonra da inkişafının, əməkdaşlığı və tərəfdaşlığı daha da gücləndirəcək yeni layihələrlə çıxış etməsinin vacibliyi diqqətə çatdırılıb.

Ortaq soy-kök, ortaq tarix və mədəniyyət, milli dəyərlər, eyni zamanda, üzv ölkələr arasında qarşılıqlı dəstək, mövcud potensial və həyata keçiriləcək layihələr Türk Dövlətləri Təşkilatının rolunu daha da artırır və onu dünyanın aparıcı beynəlxalq qurumlarından birinə çevirir.

Qeyd edək ki, 2009-cu ilin oktyabrında türkdilli ölkələrin dövlət başçılarının Naxçıvanda keçirilən toplantısında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) yaradılması barədə qərarın qəbul edilməsi əməkdaşlığın yüksəlməsində mühüm rol oynadı və dünyada türk birliyinin daha da güclənməsinə şərait yaratmış oldu. Naxçıvan sazişinin imzalanmasından keçən müddət ərzində reallaşan layihələr, imzalanan sazişlər və s. türk dövlətləri arasında münasibətləri daha da yaxınlaşdırmış oldu. Naxçıvan sazişinin imzalanmasından keçən dövr ərizində görülən işlər, qarşılıqlı səfərlər türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirmək üçün səmərəli platformaya çevrilib.

Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına Sədrlik dövründə türk dünyasının birləşməsinə böyük töhfələrini verdi. Azərbaycan Respublikasının Prezidenti, Türk Şurasının Sədri İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsi və bu görüşün koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunması dövlət başçıları səviyyəsində pandemiya ilə bağlı Zirvə görüşünü keçirən ilk beynəlxalq tədbir kimi tarixə düşdü.





### TÜRK DÜNYASINA BAXIŞ

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünü xüsusilə qeyd etməliyik. Qəbul olunan tarixi qərarlarla yadda qaldı. Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi haqqında Qərar, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında Qərar, Azərbaycan Respublikası Prezidentinin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında Qərar, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi, "Türk dünyasına baxış – 2040" sənədinin qəbulu ilə bağlı Qərar, "Türk dünyasının birliyinə verdiyi töhfələrə görə" Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına Beynəlxalq Mükafatı haqqında Qərar, Türk Dövlətləri Təşkilatında müşahidəçi status haqqında qaydalara dair Qərar və digər qərarların imzalanması tarixi hadisə olaraq əhəmiyyət daşıyır. Cənab Prezident çıxışlarının birində bildirdiyi kimi "Bu təşkilatın təməlində təbii müttəfiqlər yerləşir və həm tarix, həm mədəniyyət, həm bizim ənənələrimiz, bizim adət-ənənələrimiz, bax, bu, birliyi diktə edir. Eyni zamanda, indiki dünyada təhlükələr hər ay, hər il yaranır və əfsuslar olsun ki, dünyanın aparıcı ölkələri bu təhlükələrə qarşı düzgün addımlar ata bilmirlər və əminəm ki, Türk Dövlətləri Təşkilatının təkcə ölkələrimiz, xalqlarımız üçün deyil, dünya üçün önəmi bundan sonra da artacaq. Çünki bizim işbirliyimiz səmimidir, biz hamımız qardaşıq, birbirimizə qardaş deyirik, biz hamımız ənənəvi dəyərlər üzərində ölkələrimizi inkişaf etdiririk".

### TÜRK DÖVLƏTLƏRİNİN QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA APARILAN BƏRPA-YENİDƏNQURMA İŞLƏRİNƏ TÖHFƏLƏRİ

Təşkilat hər zaman Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləmişdir. TDT-yə üzv ölkələr arasında yaxın dostluq və qardaşlıq əlaqələrinin olması, onların bir-birini qarşılıqlı şəkildə dəstəkləməsi təşkilatın inkişaf perspektivlərini şərtləndirən əsas amillərdən biridir. Belə ki, hələ 2020-ci ildə Vətən müharibəsi zamanı bəziləri hətta Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olmasına baxmayaraq, türk dövlətləri Azərbaycanın haqlı mübarizəsinə öz dəstəklərini verdilər. 2020-ci il türk dünyası üçün yadda qalan oldu. Belə ki, türk dünyasının önəmli uğurları, ən başlıcası Azərbaycan ərazilərinin işğaldan azad olunması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi əhəmiyyətli hadisədir.

Azərbaycan tarixi Zəfərdən sonra azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərini davam etdirir. Zəfər qazanan Azərbaycan Qarabağımızda, Şərqi Zəngəzurda böyük quruculuq işlərini davam etdirir. Şuşada, Zəngilanda, Laçında və digər ərazilərdə aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kəndi müasir məkana çevirir. Tamamilə yeni bir dövr yaşanılır və bu torpaqların əzəli sakinlərinin işğaldan azad edilmiş torpaqlara mərhələ-mərhələ qayıdışı böyük canlanmaya səbəb olub. Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk sorağı idisə, artıq bu istiqamətdə aparılan işlərin məntiqi olaraq köç karvanları digər ərazilərimizə mərhələli olaraq də yol alırlar. Ağalı, Talış kəndi, sonra isə Laçın, Füzuli

Hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Artıq işğaldan azad olunan ərazilərimizdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri davam etdirilir. İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Bildiyimiz kimi, üzv dövlətlər də Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda apardığı bərpa-yenidənqurma işlərinə də öz töhfələrini verirlər. Bu baxımdan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən və bu yaxınlarda açılışı baş tutan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb, Qazaxıstan tərəfindən tikiləcək Füzulidə Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzi, Cəbrayılda yaradılan Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzini, Zəngilanda birinci mərhələsi açılan "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksini və s. qeyd etmək olar.

### ÖLKƏLƏR ARASINDA YAXINLAŞMANIN VƏ İNTEQRASİYANIN İNKİŞAFINDA CİDDİ MÖVQE

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünü xüsusilə qeyd etməliyik. Qəbul olunan tarixi qərarlarla yadda qaldı. Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi haqqında Qərar, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında Qərar, Azərbaycan Respublikası Prezidentinin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında Qərar, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi və digər qərarların imzalanması tarixi hadisə olaraq əhəmiyyət daşıyır. Onu da qeyd edək ki, Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilmişdir. Azərbaycanın qədim mədəniyyət ocaqlarından biri olan Şuşa şəhərinin 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan olunması əlbəttə ki, qürurvericidir. TÜRKSOY tərəfindən Şuşanın 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsi Türk-İslam dünyasının Azərbaycanın qədim şəhərinin mədəni zənginliyinə diqqətinin göstəricisidir. Azərbaycana dahi sənətkarlar, mədəniyyət xadimləri bəxş etmiş Şuşa şəhərini dirçəltmək, buraya yeni nəfəs gətirmək çox zəruridir TDŞ ölkələr arasında yaxınlaşmanın, inteqrasiyanın inkişaf etməsində ciddi rol oynayıb və bundan sonra töhfələrini verəcəkdir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Dağıdıcı müxalifətin seçki dələduzluğu ifşa olundu



Azərbaycan dövləti azad və demokratik şəkildə keçirilən növbədənkənar prezident seçkiləri ilə növbəti tarix yazdı. Bu tarixin adı zəfər seçkisi idi. Təbii ki, bundan sonra keçiriləcək istənilən seçki 7 fevral prezident seçkilərinin hazırlanıb həyata keçirilməsi taktikasından və təcrübəsindən bəhrələnməli olacaq. Çünki 7 fevral prezident seçkiləri elə bir yüksək səviyyədə təşkil olunmuşdur ki, burada cüzi belə səhv tapmaq, qüsurlar aşkarlamaq mümkün deyildi. Bu baxımdandır ki, seçki prosesini izləmiş 90 minə yaxın yerli və xarici müşahidəçilər arasında bir nəfər müşahidəçi belə seçkilərdə hansısa çatışmazlığın olmasını dilə gətirməyib. 200-ə qədər xarici KİV nümayəndələri də 7 fevral növbədənkənar prezident seçkilərinin beynəlxalq prinsiplərə və qaydalara əsasən keçirildiyini bəyan etdilər. Gülüş doğran və ironiya ilə qarşılanan məqam ondan ibarətdir ki, demokratik dünyanın böyük hissəsi Azərbaycanda baş tutan prezident seçkilərinin dünya ölkələri üçün nümunə olduğunu qeyd etdiyi halda ənənəvi məkrli dairələr və onları əlaltıları yenə də boşboğazlıq edir, məntiqsiz və əsassız fikirlər səsləndirir, hansısa ölkədə çəkilmiş seçki videolarını paylaşırlar. "Meydan " TV, "Abzas media", xaricdəki antimilli ünsürlər, Azərbaycanın dağıdıcı müxalifəti, "Azdlıq" qəzetinin saytı, "Toplum TV", "BBC Azərbaycan", "Azadlıq" radiosu, Sevinc Osmanqızının TV-si və digər fəaliyyətləri ancaq təxribatlar törətmək olan ünsürlər və onların rəhbərlik etdikləri təxribat maşınlarının əsas məkrli niyyətləri seçki ilə bağlı cüzi də olsa problem və ya çatışmazlıq aşkarlayıb, onun ətrafında şou yaratmaq idi. Lakin istəkləri baş tutmadı. Kifayət qədər seçki təcrübəsinə malik olan seçicilər bu dəfə də ayıq-sayıq idilər. Nəticədə 7 fevral prezident seçkiləri dünyanın sivil kəsimini heyran qoyan azad və demokratik seçki keçirilməsi ilə müstəqil Azərbaycanın tarixinə möhtəşəm seçki ənənəsini yazdı. O dərəcədə iyrənc xarakter alıblar ki, xarici ölkələrdə qeydə alınan hansısa qanunsuz seçki epizodunu Azərbaycanın ayağına yazmaqla tozanaq qopartmaq istəyirlər. "Azadlıq" radiosu video paylaşımında göstərməyə çalışır ki, guya bir seçici topa bülletenləri seçki qutusuna atır və eyni hərəkətini yenidən təkrarlayır. Digər epizodunda isə iki nəfər seçki kabinəsində səsvermə həyata keçirirlər. Araşdırmalarla üzə çıxan fakt ondan ibarətdir ki, həmin videolar 2016-cı il də xarici ölkələrin birində çəkilib. Bu iyrənc faktı təsdiq edir ki, ABŞ-dakı qaranlıq dairələr öz əlaltılarına xüsusi tapşırıqlar veriblər.

### Korrupsiyaya bulaşan "Azadlıq" radiosunun ədalətdən danışması təəccüb doğurur

"Azadlıq" radiosu öz mətbəxinin çirkablarını dilə gətirməklə kifayətlənməyib, başqalarının da fikirlərini təhrif etməklə tirajlayır: "Norveç Helsinki Komitəsinin baş katibi Berit Lindeman deyir ki, bu seçkidə sürprizlə qarşılaşmadı, yenə də insanlar dəstə-dəstə seçkiyə gətirildi. Yenə də həqiqi rəqabətə imkan verilmədi, bu seçkidə hər hansı müxalifət lideri iştirak etmədi, azad mediaya, debatlara şərait yaradılmadı. Berit Lindeman ölkədə demokratiya ilə bağlı durumun daha da pisləşəcəyini gözləyir: "O, illər ərzində daha da avtoritar olur. Düzdür, vaxt olub ki, ölkədə indikindən daha çox siyasi məhbus olub. Amma ölkədə 200-dən çox siyasi məhbus var. Daha çox adamın həbs olunmamasının səbəbi odur ki, vətəndaş cəmiyyəti əvvəlki kimi aktiv deyil". "Azadlıq" radiosu AŞPA-nın deputatı, Azərbaycan üzrə keçmiş həmməruzəçi Stefan Şennaxun adından da sayıqlamalar səsləndirib. Radionun müxtəlif özünün düzəltdiyi mənbələrə istinad etməklə vay-şüvən qoparmasının əsasında seçki prosesinə kölgə salmaq kimi uğursuz cəhd dayanır. Lakin burada da bir sıra texniki səhvlərə yol veriblər. Birincisi, yuxarıda qeyd etdiyimiz kimi, seçki "saxtakarlığı" barədə yayımlanmış video görüntüsü xarici ölkə baş verən hadisədir. İkincisi, AŞPA nümayəndəsinin Stefan Şennax - əndərəbadi açıqlama verməsi təəccüblü görünmür. Çünki bu şəxs o qurumun təmsilçisidir ki, Azərbaycan əraziləri 30 il erməni işağlı altında qalıb, tarixi abidələri yerlə yeksan olduğu, 1 milyon insanın ev-eşiyindən didərgin düşdüyü, məscidlərinin, tarixi abidələrinin dağıdıldığı halda susmağa üstünlük verdilər, bu məqamda belə Ermənistana qarşı sanksiya tətbiq etmədilər.

Qəbul etdikləri qərarların isə heç bir hüquqi çəkisi olmayıb. Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra hay-küy qaldırıb, ermənilərin yanında olduqlarını nümayiş etdirdilər. Bu azmış kimi Azərbaycana qarşı AŞPA-da səsvermə hüququnun məhdudlaşdırılması haqqında qətnamə qəbul etdilər. Norveç Helsinki Komitəsinin baş katibi Berit Lindemanının qərəzli sözlərinə gəlincə isə, burada da təəccüblü bir şey yoxdur. Birincisi ona görə ki, bu şəxsin həyat yoldaşı ermənidir. İkincisi, məşhur təxribatçı Stefan Gilin həmyerlisi və yaxın dostudur. Üçüncusü isə, əgər insanlar axın-axın seçki məntəqələrinə gedib səsvermədə iştirak edirlərsə, nədən bundan narahat olurlar? Xalq öz liderini sevirsə və Ona öz təşəkkür borcunu yerinə yetirirsə niyə əndişələnib, qarınağrısı keçirirlər? Nəhayət, "Azadlıq" radiosunun xislətidir, ağa qara deyib, hay-küy qaldırmaq. Bu, o radiodur ki, korrupsiya və rüşvətxorluq girdabında əzilir. Bütün jurnalist kollektivi ancaq ələbaxım formasında fəaliyyət göstərirlər. Pul almasalar, cibləri sevinməsə, kiminsə haqqında müsbət reportaj hazırlayıb yaymazlar. Məhz bu cür qanunazidd əməllərinə görə radioda aşağıdan yuxarıya qədər hər kəs sorğulandı və nəticədə əməkdaşlarının böyük əksəriyyəti işləri ilə xudahafizləşməli oldular.

### "Azadlıq" radiosu ilə dağıdıcı müxalifəti ortaq maraqlar birləşdirir

Digər maraqlı məqam ondan ibarətdir ki, guya radio müstəqildir, ABŞ Konqresindən maliyyələşsə də, müstəqil informasiya siyasəti həyata keçirir. "Azadlıq" radiosunun nizamnaməsində qeyd edir ki, Konqres tərəfindən maliyyələşdirilməsinə baxmayaraq, müstəqil KİV qurumudur, informasiya siyasətində azaddır. Lakin radionun Azərbaycana qarşı qərəzli və sifarişli reportajları onu deməyə əsas verir ki, nizamnamədə yazılanlar cızma- qaradan başqa bir şey deyil. "Azadlıq" radiosu Fransa senatı, ABŞ Konqresi, AŞPA nümayəndələri kimi ermənipərəst mövqe nümayiş etdirir, Azərbaycana qarşı qərəzli şər və böhtanlar səsləndirir, reportajlar yayır. Bu fəaliyyətində Azərbaycanın dağıdıcı müxalifəti ilə eyni maraqları bölüşməsi və birgə iş aparmaları onu təsdiq edir ki, xarici maraqlı dairələr belə məsləhət görüblər. Fikir verin, dağıdıcı müxalifətin yaydığı istənilən şantaj və böhtan xarakterli informasiya ilk olaraq "Azadlıq" radiosunda işıq üzü görür. İndi də Milli Şura, AXCP və Müsavat amplualarına uyğun olaraq seçkilərlə bağlı dezinformasiyalar açıqlayan kimi "Azadlıq" radiosu ilk yayıma çevrildi. Diqqətlə yanaşdıqda aydın olur ki, dağıdıcı müxalifətin seçkilərlə bağlı açıqlaması, bəyanatı xarici maraqlı dairələrin tezisləri əsasında hazırlanıb. Yəni, başdan ayağa qədər şər və böhtanlardan ibarət olan fikirlər. Lakin görən, rüşvətxorluğun tüğyan etdiyi "Azadlıq" radiosunun başbilənləri Əli Kərimliyə, Cəmil Həsənliyə, Arif Hacılıya və digərlərinə sual edirlərmi ki, seçkilərdə iştirak etmədiyiniz halda hansı haqla seçkilərlə bağlı fikir yürüdürsünüz? Sizlərin seçki məntəqələrində müşahidəçiləriniz olmadığı halda haradan bilirsiniz ki, seçki prosesində nələr yaşanıb və baş verib? Yəqin ki, bu sualların cavabı olmayacaq. Çünki sualı səsləndirmək üçün "Azadlıq" radiosu müstəqil olmalıdır. Radio isə ABŞ Konqresinin boyunduruğu altındadır. Ortaq maraqlar hər iki tərəfi susmağa və bir-birinin ayıbını örtməyə məcbur edir.

***İLHAM ƏLİYEV***

ANALİZ

# Kirayə müqavilə ilə olsun, yoxsa..?

***Kirayə müqaviləsi adətən yaşayış sahələrindən istifadə hüquqların verilməsi zamanı bağlanılır. Əmlak kirayəsi müqaviləsinə görə, kirayəyə verən əşyanı kirayəçinin istifadəsinə verməyi, kirayəçi isə bunun üçün kirayəyə verənə kirayə haqqı ödəməyi öhdəsinə götürür. Yaşayış sahəsinin kirayə müqaviləsinə görə, kirayəyə verən yaşayış sahəsini kirayəçinin istifadəsinə verməyi, kirayəçi isə bunun üçün kirayəyə verənə kirayə haqqı ödəməyi öhdəsinə götürür. SİA iqtisadçı-ekspert, deputat Vüqar Bayramovun və əmlak məsələləri üzrə ekspert Ramil Osmanlının məsələ ilə bağlı fikirlərini öyrənib.***



İqtisadçı-ekspert, deputat Vüqar Bayramov: "Kirayə müqavilələrin bağlanması bir tərəfdən vergidən yayınmanın qarşısının alınması baxımından vacibdir. Çünki kirayə müqaviləsi bağlanmadıqda praktik olaraq həmin münasibətlərin və ya dövriyyənin vergiyə cəlb edilməsi mümkün olmur. Ona görə kirayə müqaviləsi həm də büdcəyə vəsaitlərin cəlb edilməsi baxımından vacibdir. Eyni zamanda kirayə müqaviləsinin bağlanması həm də öhdəlikdir. Çünki ev sahibi öz evini və ya əmlakını kirayə verir. Bu əmlakın təhlükəsizliyi, həmin əmlakın yerləşdiyi binaya və qonşulara zərər vurmaması ilə bağlı öhdəliyin götürülməsi, ödənişlərin vaxtında həyata keçirilməsi üçün kirayə müqaviləsinə ehtiyac var. Kirayə müqaviləsinin bağlanması yalnız iqtisadi deyil, həm də təhlükəsizlik və məsuliyyətin bölüşülməsi baxımından çox önəmlidir. Bu, tərəflər arasında məsuliyyətin müəyyənləşdirilməsinə, eləcə də öhdəliklərin bölüşdürülməsinə imkan yaradır. Daha məqsədəuyğundur ki, vətəndaşlarımız əmlaklarının təhlükəsizliyi, vaxtında ödənişlərin həyata keçirilməsi üçün əmlaklarını kirayə verən zaman müqavilə bağlayaraq bunu həyata keçirsinlər".

Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı: "Kirayə müqaviləsinin bir sıra üstünlükləri var. İlk növbəti kirayə münasibətlərinin rəsmiləşdirilməsi kirayə verənin daha çox öz əmlakı ilə bağlı gələcəkdə yarana biləcək problemləri, müqayisəli məsələləri həll etmək baxımından vacibdir. Kirayəni götürən tərəfindən müəyyən qüsurlar yaranır. Problemlər ortaya çıxır, onların mübahisələndirilməsi o zaman mümkün olur ki, kirayə müqaviləsi bağlanıb, münasibətlər rəsmiləşdirilib. Bu münasibətlərdən irəli gələn öhdəliklərin icrasının pozulması ilə bağlı məhkəmədə tərəflər iddia qaldıra bilirlər.

Bundan başqa kirayə verən tərəf mənzilini kirayə verirsə, buna görə götürdüyü gəlirdən mütləq şəkildə vergi ödəməlidir. Əgər fiziki şəxsdirsə, fiziki, hüquqi şəxsdirsə, hüquqi şəxs kimi müəyyən vergi öhdəlikləri yaranır. Fiziki şəxs 14% götürdüyü gəlirdən hər ay vergi ödəməlidir. Bu verginin ödənilməməsinə görə vergi qanunvericiliyində sanksiyalar nəzərdə tutulur. Müəyyən müddətdən sonra vergi orqanı hər hansı yoxlama nəticəsində belə hal aşkar etsə ki, illərdir öz mənzilini kirayə verib ordan gəlir götürür. Amma bu haqda gəlirləri bəyan etmir, gizli saxlayır. Ən yaxşı halda vətəndaşı ötən dövr ərzində yayındığı vergiləri ödəməyə məcbur edəcəklər. Bunu özü bəyan edərsə, belə olur. Bəyan etmədiyi halda bəzən bu məbləğin ikiyə vurulması, əlavə vergi cinayətləri kimi məsələlər məbləğdən asılı olaraq ortaya çıxa bilər. Vətəndaşa götürdüyü gəlirlərin bəyan olunması və vergilərin ödənilməsi baxımından müəyyən münasibətlərin rəsmiləşdirilməsi vacibdir.

Sığorta hadisəsi baş verə, mənzilə zərər dəyə bilər. Dəymiş zərərin ödənilməsi, sığorta hadisəsi nəticəsində dəymiş zərərin ödənilməsi, bütün bunlar münasibətlər rəsmiləşdirildiyi təqdirdə kirayə verən üçün əlavə üstünlük yaradır. Eyni zamanda mənzilin boşaldılması ilə bağlı prosedurlar da kirayə münasibətlərinin rəsmiləşdirilməsi halında daha asan olur. Qanunvericiliyə görə tərəflərdən biri ən geci bir ay əvvəl qarşı tərəfə onu çıxaracağı, kirayə götürən də çıxacağı ilə bağlı qarşı tərəfə məlumat verir. Hər iki tərəf üçün müəyyən imkanlar yaranır. Kirayə götürən mənzildən çıxmaq istəməyə bilər. Bu halda da məhkəmə qaydasında onun mənzildən çıxarılması tələb şəklində qoyulur. Gecikdirdiyi müddətin də kirayə haqqını ödəmək şərti ilə məhkəmə yolu ilə mənzildən çıxarılması təmin olunur. Həm vergi öhdəlikləri, həm dəymiş zərər, sığorta, digər problemlər baxımından bu cür müqavilələrin bağlanması daha çox kirayə verənə sərf edən məsələdir. Kirayə verən şəxslər mütləq mənzillərini kirayə verərkən kirayə münasibətlərini rəsmiləşdirməkdə maraqlı olmalıdırlar. Cüzi rüsumlar var, notariat kontorlarına yaxınlaşmaqla kirayə müqaviləsi bağlanır və bu məsələ həllini tapır".

***Söylü Ağazadə***

# "Hər şey AŞPA-nın mövqeyindən asılıdır"

***"Avropa Şurası Parlament Assambleyasının Azərbaycana, Azərbaycan nümayəndə heyətinə qarşı sərgilədiyi münasibət dəyişməlidir". Bu sözləri SİA-ya açıqlamasında deputat Naqif Həmzəyev deyib.***



O, bildirib ki, qərəzdən, Ermənistanın haqsız mövqeyini müdafiə etməkdən əl çəkməlidirlər: "Düşünürəm ki, gec, ya da tez AŞPA rəhbərliyi buraxdıqları səhvi anlayacaqlar. Onlar Azərbaycan nümayəndə heyətinə, Azərbaycana qarşı qərəzdən əl çəkəcəklər. İkili standartlara son qoyacaqlar. Belə olacağı təqdirdə AŞPA ilə münasibətlərimizin yenidən əvvəlki məcraya qayıtması mümkün ola bilər. Hər şey AŞPA-nın mövqeyindən asılıdır. Azərbaycan da AŞPA və Avropa təsisatlarından ədalətli mövqe gözləyir. Ümid edək ki, onlar öz səhvlərini düzəldəcəklər. Azərbaycanın daxili işlərinə qarışmaqdan, Ermənistanı haqsız müdafiə etməkdən, Azərbaycana haqsız yerə təzyiq mexanizmini gücləndirməkdən daşınacaqlar. Onların atacaqları bu addımdan sonra münasibətlərin əvvəlki vəziyyətinə qayıtmasından danışa bilərik.

Azərbaycan sentyabr ayında suverenliyini bərpa etdikdən sonra Azərbaycana qarşı Avropa Şurası Parlament Assambleyası tərəfindən çox sərt və təxribat xarakterli mövqe sərgiləyənməyə başladı. Azərbaycan əleyhinə yanlış qərarlar verildi. Xüsusilə, Qarabağda yaşayan erməni əsilli əhalinin Ermənistana getməsi ilə əlaqədar yanlış fikirlər səsləndirildi. Azərbaycanı bu prosesdə təqsirkar çıxarmağa çalışdılar. Ermənistanı müdafiə etməklə yanaşı beynəlxalq ictimaiyyətdə yanlış fikrin yaranmasına səbəb oldular. Azərbaycanda növbədənkənar prezident seçkilərinin elan edilməsindən sonra Azərbaycana qarşı bu mövqe daha da sərtləşdi. Onlar konkret olaraq Azərbaycana, keçirilən seçkilərə qarşı təxribat xarakterli planlar qurdular. Bizə qarşı olan münasibət doğru deyil, ikili standartlardan xəbər verirdi. Onlar uzun illər idi ki, sülhün olmasını dilə gətirirdilər. Azərbaycan öz gücü hesabına Cənubi Qafqazda sülhü bərqərar etdikdən sonra onlar sanki buna qarşı çıxdılar. Azərbaycanın güclənməsini, söz sahibi olmasını, yeni reallıqlar yaratmasını həzm edə bilmədilər".

"Bundan əvvəl də Azərbaycana qərəzli mövqe sərgilənmişdi. AŞPA-da Fransanın təsiri ilə bu mövqe daha da gücləndirildi. Azərbaycan bu təxribatların qarşısını aldı. Azərbaycan nümayəndə heyəti AŞPA-da fəaliyyətini müvəqqəti dondurdu. Azərbaycan nümayəndə heyəti tərəfindən verilmiş bəyanatda da bütün məsələlər öz çılpaqlığına qədər əksini tapıb. AŞPA mövqeyini mütləq dəyişməlidir. Belə olacağı təqdirdə münasibətlərin yenidən bərpa edilməsi mümkün ola bilər. Eyni zamanda Azərbaycan kimlərinsə diktəsi, təzyiqi ilə hərəkət etməyi sevmir. Əgər bu təxribatlar davam edərsə, Azərbaycan tərəfindən fərqli yanaşmalar sərgilənə bilər. Azərbaycanda keçirilən növbədənkənar prezident seçkiləri AŞPA və digər Avropa təsisatlarının təxribatlarına çox yaxşı cavab oldu. Azərbaycan xalqı öz seçimini etdi, xalq qalib liderinə səs verdi. Öz liderini yenidən prezident seçdi. Əldə edilən nəticə, seçkidəki aktivlik bütün təxribatlara çox praktik cavab oldu. Avropa təsisatları, xüsusilə də, AŞPA bu mövqeyi gördükdən sonra Azərbaycana qarşı mövqeyinə mütləq dəyişiklik etməlidir. Ermənistandan çox erməni mövqeyi sərgiləmək, heç Paşinyanın da edə bilmədiyini etmək absurddur və birbaşa təxribatdır" - deyə deputat əlavə edib.

***Söylü Ağazadə***

# Xəbərdarlıq: "Taksi kimi fəaliyyət göstərmək istəyən şəxslər..."





"Azərbaycanda avtomobil nəqliyyatı ilə sərnişindaşıma sahəsində ciddi problemlər var. 2023-cü ilin iyun ayında Milli Məclisdə yeni bir qanun qəbul olundu ki, bu sahədə nizam-intizam yaransın. "Avtomobil nəqliyyatı haqqında" qanuna, Vergi məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə dəyişiklik olundu. Bu dəyişikliklərin bir hissəsi 2023-cü ilin oktyabrından, digər bir hissəsi isə bu ilin yanvarın 1-dən qüvvəyə minib". Bu sözləri SİA-ya açıqlamasında yol hərəkəti üzrə ekspert, hüquqşünas Ərşad Hüseynov deyib.

Onun sözlərinə görə, hədəf isə icazə sistemini təkmilləşdirməkdir: ""Lisenziyalar və icazələr haqqında" qanunda göstərilir ki, avtomobil nəqliyyatı ilə həm sərnişin, həm də yük daşınması üçün icazə alınmalıdır. Bu icazədə yenilik ondan ibarətdir ki, avtomobil nəqliyyatı sərnişin daşınması ilə məşğul olmaq istəyən hüquqi şəxslər, şirkətlər və sahibkarlar buraxılış vərəqəsi almalıdır. Bundan sonra taksi kimi fəaliyyət göstərmək istəyən şəxslər buraxılış kartı almalıdır. Yəni,



burada iki elektron sənəddən söhbət gedir. Buraxılış vərəqəsi daşımalarla, buraxılış kartı isə daşımalarda taksi fəaliyyəti ilə məşğul olmaq üçündür. Bu sistem hələki işə başlamayıb. Ona görə də sistem tam şəkildə qurulanadək heç kimə cərimə yazılmayacaq".

"Hesab edirəm ki, bu sistem şəffaf formada hazır olsa, sözügedən sahədə mühüm bir irəliləyişə nail ola bilərik. Çünki taksi fəaliyyəti ilə bağlı xeyli narazılıqlar var. İstər taksi sürücülərinin davranışı, istər yol hərəkəti qaydaları, istərsə də avtomobillərin vəziyyəti ilə bağlı şikayətlər mövcuddur. Bununla yanaşı, taksi sürücülərinin də istismar olunmaqlarına dair şikayətləri var. Bu sistem bütün bunları nizama salmağa yönəlib. Şəhərdə xaos yaradan, lazımsız hərəkətlər edən bəzi taksi sürücüləri bu sistem sayəsində öz sənədlərini, davranışlarını və s. qaydalara uyğun vəziyyətə gətirərlər",- deyə o əlavə edib.

***Ləman Sərraf***



Lalə Mehralı

# Olar səni qucaqlayım?

***Qucaqlamaq sevgini ifadə eləməyin ən gözəl nümunəsidir. İnsan saxta qucaqlaya bilmir, qucaqladığı adam bunu dərhal hiss edər. Qucaqlaşmağı bacaran canlıların bir-birinə sevgisinin ən pik nöqtəsidir, ən bariz təzahürüdür qucaqlaşmaq, yaşadığın anın dəyərini bilməkdir, o anı uzatmaqdır. Qucaqlamaq ağrıkəsicidir, sevgi hormonudur, paylaşmaqdır, bölüşməkdir, ortaq duyğular hiss etməkdir.***

Sevdiyimiz, dəyər verdiyimiz birini qucaqladığımız zaman bədənimiz oksitosin ifraz etməyə başlayır, bu hormon sevgi, xoşbəxtlik hormonu kimi də tanınır. Əzizimizin bir yeri ağrıyanda, xəsarət alanda, kədəri olanda onu qucaqlamağımız onda ağrıkəsici effekti verir. Bu hormonun bədənimizdə istehsalı bizi gündəlik stresdən, mənfi düşüncədən qoruyur. Bu da o deməkdir ki, qucaqlaşmaq bizim həm fiziki, həm də mənəvi sağlamlığımızı qoruyur. Uşaqlar ona görə bir yeri ağrıyan kimi valideynlərini qucaqlamaq ehtiyacı duyurlar. Qucaqlaşmaq gözəldir, eyib bilməyin. Sevginizi göstərin tez-tez sevdiklərinizə. Qucaqlamaq, bir-birini başa düşməyi asanlaşdırır, şəfqət verir, şəfa ötürür.

Biz qucaqlaşmağa utanan bir nəsil kimi böyüdük. Valideynlərimiz bizi çox əzizləyib-qucaqlamadı, başqalarının yanında sevgisini göstərmədi. Böyüklərdən ayıb bildilər bunu. Atalar öz valideynlərinin yanında qucağına almazdı bizi, analar böyüklərdən ar edərdi bizi əzizləməyə. Bir yanımız həmişə kəm böyüdü buna görə. Nənə-babamızdan gördük, adətən, əzizlənməyi. Bizi qucağında böyüdən nənəmiz vaxt gəldi övladımızı da qucağına aldı, sevdi, əzizlədi.

...İş gününün yorğunluğu ilə ayaqlarımı sürüyüb birtəhər yaxınlıqdakı dayanacağa qədər getdim, avtobus o dəm özünü yetirdi. Boş oturacaq tapıb oturdum. İki dayanacaq sonra avtobusa uşaqlığım mindi - alnında çit parçadan çəkisi, başında güləbatın tikməli, kənarı saçaqlı şalı olan bir nənə. Uşaqlığım ona deyirəm. Eynən mənim nənəmə bənzəyirdi. Ağzı dualı, əli bərəkətli, ürəyi yuxa nənəm. Qalxıb yerimi verdim, boş yer yox idi, özüm də durdum düz qənşərində, uşaqlığıma baxa bilim deyə. Bir oturacağa görə yüz dəfə "sağ ol", - dedi nənə, dua elədi. Alışmadığımız, tərgitdiyimiz vəziyyətdir, adətən ortayaşlı qadınlara yer verəndə minnətlə, göz süzdürərək otururlar, bir quru "sağ ol" deməndən.

Dayanacağıma yaxınlaşırdım, avtobusdan enmədən nənəmə bənzəyən nənəni qucaqlayıb öpmək keçdi içimdən. Ətrafıma boylandım. Qəzəbli baxışlı, aqressiv simalı insanların içində bunu edə bilərəmmi? Avtobuslarda, metrolarda niyə hamının üzündən qəzəb yağır? Dəli olduğumu zənn edərlər birdən. İki gün əvvəl gözləri ecazkar dərəcədə yamyaşıl bir qıza "nə gözəl gözlərin var" dediyim üçün yanındakı qadının kəm-kəm baxdığı avtobusda idim axı. Qızın yorğun üzü işıqlandı, pəncərədən bayıra baxan o gözəl rəngli gözlərinin içi güldü, təşəkkür etdi. Amma o yanındakı qadın yenə eyni cür baxmağa davam etdi. Günah iş görmüşəmmiş kimi, tənə ilə. Amma eynimə almadım.

Bu dəfə də eynimə almadım, nənəyə yaxınlaşıb qulağına dayadım ağzımı: "Olar səni qucaqlayım?", - deyə soruşdum. "Siz" demədim, nənəmə də "sən" deyirdim axı... Təəccüblənmədi, amma bir az duruxdu. "Nənəmə çox oxşayırsan", - dedim, gülümsədi, başı ilə razılıq işarəsi verdi. Qucaqladım, qoxusunda nənəm vardı. Nənəmli illərə gedib sağ olan nənəmi qucaqlamış kimi oldum. Məlumat monitorunun səsinə geri qayıtmalı oldum nənəmli illərdən, avtobus dayandı, nənəyə təşəkkür edib düşdüm, gülümsədi arxamca, "günün ağ olsun", - dedi. Eynən nənəm kimi. Düşdüm, ötüb keçən avtobusdan təəccüblə baxan sərnişinləri gördüm. Kim bilir, neçəsinin ürəyində qucaqlaya bilmədiyi insanlara olan həsrəti vardı, nisgili vardı, etiraf edilməyən, dilə salınmayan. Özümü qınadım, gərək düşməzdən əvvəl ucadan onlara deyəydim: "Heç vaxt gec deyil, qucaqlayın o həsrətinizi, çəkinirsinizsə, lap icazə alın, "olar səni qucaqlayım?", - deyin, amma qucaqlayın".

# “Azərbaycandan nümunə götürülməlidir”

***Qriqori Karasin: Seçicilərin gözündəki nikbinliyi görərək onların hansısa mücərrəd gücə və ya rəqəmə yox, gələcəkdə onlara, onların övladlarına, nəvələrinə sabit, buludsuz bir həyat bəxş edəcək prezidentə səs verdiklərini anladıq.***



Rusiya Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin sədri, Federasiya Şurasının Azərbaycanda keçirilən prezident seçkilərini müşahidə missiyasının rəhbəri Qriqori Karasin fevralın 7-də Bakıdakı seçki məntəqələrində olub. Qriqori Karasin Azərbaycandakı seçki prosesi ilə bağlı fikirlərini “Moskva-Baku” portalı ilə bölüşüb.

**-Qriqori Borisoviç, Azərbaycanda keçirilən prezident seçkilərində seçki prosesini necə qiymətləndirirsiniz?**

- Biz səhər tezdən bir neçə seçki məntəqəsində olduq və insanların səs vermək əhval-ruhiyyəsinin necə olduğunu gördük. Mən seçicilərin gözündəki nikbinliyi və onların hansısa mücərrəd gücə və ya rəqəmə yox, gələcəkdə onlara, onların övladlarına, nəvələrinə sabit, buludsuz bir həyat bəxş edəcək prezidentə səs verdikləri anlayışını qeyd edərdim. Biz burada emosional optimizm hiss etdik. Eyni zamanda, seçkilərin demək olar ki, mükəmməl təşkilini qeyd etmək istərdim. Seçkilərin necə keçirilməsi ilə bağlı beynəlxalq müqavilələrə tam uyğun olan geniş zallar. Bir sözlə, heyran qaldıq. Yaxın vaxtlarda- daha dəqiqimartda Rusiyada prezident seçkilərinin keçiriləcəyini nəzərə alaraq, burada daha çox seçki məntəqələrinə baş çəkməyə çalışdıq ki, imkanları müqayisə edək, hətta Azərbaycanın indi nümayiş etdirdiyi seçkilərin təşkilinin bəzi formalarından nümunə götürməyə çalışaq.

**- Rusiyada keçiriləcək prezident seçkilərini müşahidə etmək üçün Azərbaycan nümayəndə heyətinin hansı tərkibdə gələcəyi artıq məlumdurmu?**

- Hələ yox. Dəvət var, hər şey dəqiqləşən kimi bizə məlumat veriləcək. Prinsipcə, hələ martın 17-nə qədər vaxt var.

**- Fevralda Müttəfiq Əməkdaşlıq haqqında Bəyannamənin imzalanmasının 2 ili tamam olacaq. Rusiya və Azərbaycan öz müttəfiqləri ilə necə münasibət qura və bugünkü çağırışlara birgə cavab verə bilirlər?**

- Moskva ilə Bakının dövlətlərimizin rəhbərləri səviyyəsində müttəfiqlik üzrə qarşılıqlı fəaliyyət haqqında sənəd imzalaması, ümumilikdə, beynəlxalq sabitliyə, Cənubi Qafqazda mövqe və vəziyyətin proqnozlaşdırılmasına çox mühüm töhfədir. Və iş tam sürətlə gedir. İqtisadi, sosial, humanitar məsələlərlə bağlı danışıqlar davam edir, iki ölkənin hökumətləri işləyir, parlamentlərarası əlaqələr də intensivləşir. Keçən ilin dekabrında biz burada birgə komissiya keçirdik, Milli Məclisin sədri Sahibə Qafarova ilə görüşdük, səmimi və zəngin söhbətimiz oldu. Əminəm ki, əməkdaşlığımız yalnız bütün sahələrdə genişlənəcək.

**- Bu gün təkcə Rusiya deyil, Azərbaycan da bəzi Qərb dövlətləri və strukturlarının təzyiqləri ilə üzləşir. Bu yaxınlarda AŞPA Azərbaycan nümayəndə heyətinin strukturdakı hüquqlarını təsdiqləməkdən imtina edib. Bu, Qərbin ölkələrimizin “həddindən artıq” suverenliyini bəyənməməsi ilə bağlıdır?**

- Mən AŞPA-da olan biabırçılığın yeganə səbəbi olaraq bunu adlandırmazdım. Azərbaycanın müvafiq qərar qəbul edərək siyasi iradə nümayiş etdirməsi çox vacibdir. Daha doğrusu, bu, Qərbin siyasətinin ümumi sərtləşməsi və müxtəlif kanallarla suveren dövlətlərə təzyiq etmək istəyi ilə bağlıdır. Biz qarşılıqlı anlaşma tərəfdarıyıq, amma ölkəmiz əleyhinə danışanda da susmayacağıq.

**- Rusiyanın vasitəçiliyi ilə 2020-ci ildə Rusiya, Azərbaycan və Ermənistan liderləri tərəfindən üçtərəfli bəyanat imzalandı. İndi Ermənistan tərəfindən bu bəyanatı demək olar ki, ləğv etmək və Qərbi sülh prosesinə cəlb etmək cəhdləri var. Bu cəhdlərin məqsədi nədir?**

- Bizim erməni qonşularımız bəzən Ermənistan rəhbərliyinin ağzından ziddiyyətli bəyanatlar verirlər. Biz onlara dəqiqliklə və tənqidi yanaşmalı, amma ondan bir növ dram yaratmamalıyıq. Vəziyyət inkişaf edir, biz sağlam düşüncəyə ümid edirik ki, əvvəllər mövcud olan bir çox əsas problemlər, o cümlədən Qarabağın taleyi də öz həllini tapıb. Ermənistanın baş naziri Paşinyan bu haqda danışır, Bakıda da danışırlar. Keçmişdən bizə qalan bütün problemləri birlikdə həll etməyə davam edəcəyik.

**- Parlamentlərarası İttifaqın baş katibi iki ölkənin parlamentləri səviyyəsində təmaslar formatının yaradılması üçün bu ilin martında Azərbaycan və Ermənistan parlament sədrlərinin Cenevrədə mümkün görüşünün keçiriləcəyini açıqlayıb. Bildiyiniz kimi, ilkin olaraq Rusiya öz vasitəçiliyi ilə oxşar formatın yaradılması təşəbbüsü ilə çıxış etmişdi. Ancaq bu təşəbbüs nəticə vermədi. Sizcə, niyə?**



- Bu suala cavab vermək mənim üçün çətindir. Arzu edirəm ki, həm Ermənistan, həm də Azərbaycan parlamentləri konkret problemlərin həlli üçün mümkün qədər sıx əməkdaşlıq etsinlər. Biz Rusiya Federasiyasının Federasiya Şurası olaraq əməkdaşlığa hazırıq.

**- Fevralın sonunda Moskvada Rusiya-Azərbaycan regionlararası forumu keçirilməlidir. Bu qarşılıqlı əlaqə formatını necə qiymətləndirirsiniz?**

- Mən bunu çox müsbət qiymətləndirirəm. Dünən Azərbaycanda olduğumuzdan istifadə edərək ölkələrimiz arasında keçid məntəqəsinin yerləşdiyi Samur körpüsünədək getdik. Gördük ki, orada yeniliklər var, Azərbaycanın regionları ilə Dağıstan arasında qarşılıqlı əlaqə sadələşdirilib. Amma biz də maraqlıyıq ki, Rusiya Federasiyasının digər qurumları da öz azərbaycanlı həmkarları ilə qarşılıqlı əlaqədə olsunlar və parlamentin dəstəyi ilə buna töhfə versinlər. Belə tədbirlər silsiləsi planlaşdırırıq. Yeri gəlmişkən, mən Milli Məclisdəki həmkarlarımla 2024-cü ilin ikinci yarısında ərazimizdə Rusiya-Azərbaycan birgə komissiyasının keçirilməsini müzakirə etmişik və həmin komissiyada bütün bu məsələlər müzakirə olunacaq.

*Tərcümə - Elçin Bayramlı*



Elçin Bayramlı

# Seçki müşahidələrim: 32 saylı məntəqədə nələr baş verdi?

***7 fevral** növbədənkənar Prezident seçkiləri müasir Azərbaycan tarixinə zəfər seçkiləri kimi düşdü. Sovet dövründən sonra ilk dəfə idi ki, Azərbaycanda seçkilər ölkənin bütün ərazisində keçirilirdi. Ölkə Prezidenti isə öz səsini Xankəndidə verdi və bu da bir tarixi ilk idi. Mən bu seçkini 35 saylı Xətai 3-cü Seçki Dairəsinin 32 saylı seçki məntəqəsində başdan sonadək müşahidə etdim. Rubrikamızın adına uyğun olaraq bu, küncdən baxış idi. Həm də ən yaxın küncdən. Məlum olduğu kimi, bir məkanı tam görə bilmək üçün ən yaxşı mövqe seçimi küncdən baxmaqdır.*

Komissiyanın katibi Gülsüm Hacıyevanın məntəqəni açıq elan etməsindən sonra müşahidəçilərin və jurnalistlərin qeydiyyatı başlandı.

Saat 08-də Məntəqə seçki komissiyasının sədri Aida İsmayılova tərəfindən səsvermənin başladığı elan olduqdan sonra isə seçicilər gəlməyə başladılar. İlk seçicilərin çoxu yaşlı insanlar idi, onların arasında çəliklə, araba ilə gələnlər də var idi. Bir qədər sonra məntəqədə qələbəlik müşahidə olundu. Seçicilər məntəqəyə daxil olan kimi xüsusi cihazla barmağı yoxlanır, sonra adını siyahıda tapıb bülleten alır, kabinəyə girib səslərini verir və bülleteni qutuya salırdılar. Bütün bu proses hamının gözü qarşısında tam şəffaf şəkildə keçirdi və səsvermə ilə bağlı gün ərzində bircə dəfə də şikayət və ya narazılıq baş vermədi.

Məntəqədə 10-dan artıq xarici və yerli müşahidəçi prosesə nəzarət edirdi. İstisnasız olaraq hamının barmağına görünməz boya vurulur və gələn hər seçinin barmağında boya olub-olmadığı dəqiq yoxlanırdı.

Seçki komissiyasının katibləri və üzvləri seçicilərə hər cür köməklik göstərir, onlara bilmədiklərini izah edirdilər. Komissiyanın sədri isə bülletenləri kəsib verir, hər bir seçicinin barmağına boya vurur və müvafiq sənədləşmələri aparırdı. Bir neçə dəfə seçici tərəfindən qaydaların pozulmasına bilərəkdən və ya bilməyərəkdən cəhdlər oldusa da, komissiya tərəfindən qarşısı alındı.

Əsas problemlərdən biri də bəzi seçicilərin yaşayış ünvanları ilə bağlı oldu. Bəzi sakinlərin yaşadığı yeni tikilmiş binalar hələ qeydiyyata olmadığından və ya başqa yerə qeydiyyatda olan, lakin uzun müddətdir ki ərazidə yaşayanlardan müvafiq sənəd təqdim edənlərə səsvermə üçün şərait yaradıldı.

Seçici fəallığı yüksək idi. Maraqlı məqamlardan biri də o idi ki, xeyli seçici əlavə olaraq gəlmiş, uşaqlarını da gətirmişdi ki, bu tarixi prosesdə iştirak etsin. Saat 19-a bir neçə dəqiqə qalmış təngnəfəs özünü çatdıranlar da oldu ki, son dəqiqələrdə səs verdilər.

Saat 19:00-da komissiyanın sədri Aida xanım səsvermənin bitdiyini elan etdi. Bütün müşahidəçilərin gözü qarşısında qutular açıldı və bülletenlər bir-bir yoxlanıb sayılmağa başlandı. Məntəqə siyahısında olan 1100 seçicidən 773 nəfər seçki bülleteni almış və səsvermədə iştirak etmişdi. 3 etibarsız bülleteni çıxmaq şərtilə 770 seçicidən 667-i İlham Əliyevə səs vermişdi. Qalan bülletenlər möhürləndi, müvafiq sənədlərə qeydlər edildi və bütün sənədlər 35 saylı DSK-ya təqdim olundu.

Məntəqə açılandan bağlananadək 1 saniyə belə müşahidəyə ara vermədən hər şeyi müşahidə etdim. Ümumilikdə deyə bilərəm ki, bu məntəqədə bircə dəfə də qanun pozuntusu baş vermədi, hər hansı bir təbliğata, seçiciyə təsir faktına, təkrar səsvermə cəhdinə, qutuya əlavə bülleten atmaq cəhdinə rast gəlinmədi. Faktiki səsvermə prosesi tam şəffaf və demokratik şəkildə keçdi.

Şübhə etmirəm ki, ölkə üzrə də ümumilikdə elə olub. Əlbəttə, mən yalnız bir məntəqədə gördüklərimi yazıram və bəzi məntəqələrdə hər hansı bir pozuntulara rast gəlinməsi mümkündür. Lakin bir şeyi əminliklə deyə bilərəm ki, hər hansı bir saxtakarlığa və ya müdaxiləyə heç ehtiyac da yox idi. Hər namizədin nə dərəcədə ictimai nüfuza malik olduğunu onsuz da hamı bilir.

Beləliklə, İlham Əliyevin 92-93 faizini toplayaraq yenidən Prezident seçilməsi həm qanuni mübarizə, həm də şəffaf səsvermə prosesi ilə təsdiq olundu. Həqiqətən də, bu gün Azərbaycanın ərazi bütövlüyünü bərpa edən Qarabağ fatehi, beynəlxalq miqyasda nüfuzlu liderlərdən biri olan İlham Əliyevə alternativ yoxdur.

Şübhə yoxdur ki, İlham Əliyevin rəhbərliyi altında Azərbaycan növbəti 7 ildə daha böyük uğurlara imza atacaq, sosial-iqtisadi inkişaf daha da sürətlənəcək, dünyada ölkəmizin siyasi nüfuzu daha da yüksələcək.

# Quduz olmaqdan necə qorunmalı?

***Bu, virusların yaratdığı, tez-tez heyvanlardan insanlara keçən, beyin və onurğa beyninə təsir etdiyi üçün ölümlə nəticələnən xəstəlikdir. SİA xəbər verir ki, profilaktik tədbirlər görülməzsə, demək olar ki, bu, bütün məməlilərdə ölümcül olur. 2016-cı ilə qədər simptomlar göründükdən sonra sağ qalan insanların yalnız 14 hadisəsi bildirildi. Sağ qalan xəstə huşsuz vəziyyətdə idi və 6 gün komada qaldı. Müalicənin 10-cu günündə xəstə gözlərini açıb anasını tanıdı, lakin danışma və yerimə kimi fəaliyyətləri yenidən öyrənməli oldu.***

**Quduzluğa yoluxma ehtimalı olan heyvan növləri hansılardır?**

İt, pişik, keçi, at, eşşək və inək kimi ev heyvanları, eləcə də canavar, tülkü, çaqqal, donuz, ayı, sansar, skunks, kirpi və köstəbək kimi vəhşi heyvanlar quduzluğa yoluxa bilər. Bu heyvanların tüpürcəklərində tapılan quduzluq virusu heyvanın dişlədiyi yaradan daxil olur. Sonra yavaş-yavaş irəliləyir və beyinə çatır. Buna görə də xəstəliyin inkubasiya dövrü 10 gün ilə 6-8 ay arasında dəyişir.







**Heyvanlarda quduzluğun simptomları**

• Heyvanın temperamentində və ya hərəkətlərində dəyişikliklər, qorxaqlıq, əsəbilik və aqressivlik müşahidə oluna bilər.

• Heyvanın, adətən, dişləmək istəyi güclüdür.

• Bədəndə iflic, udma çətinliyi, ağızdan su axması, qıcolmalar.

İnsanlarda quduzluğun simptomları

• Dişlənmiş bədən bölgəsində hisslərin dəyişməsi.

• Parez və ya iflic.

• Udma çətinliyi.

• Sudan qorxma.

• Şüur itkisi.

• Sancılar.

• Əsəb pozğunluqları.

**Körpələrdə və uşaqlarda quduzluğun simptomları**

Quduzluq bütün yaş qruplarında müşahidə edilə bilər. Ancaq körpələr və uşaqlar xüsusilə həssasdırlar. Çünki müalicə edilmədikdə simptomlar sürətlə inkişaf edə və ölümcül ola bilər. Uşaqlarda və körpələrdə quduzluğun simptomlarına aşağıdakılar daxildir:

• Qızdırma: İlk simptom, adətən, qızdırmadır.

• Əsəbilik: Körpələrdə və uşaqlarda narahatlıq, əsəbilik və ümumi diskomfort vəziyyəti müşahidə oluna bilər. Bu, yoluxmuş uşağın normal davranışından sapmaları ehtiva edə bilər.

• Başağrısı və qusma: Quduzluq infeksiyası irəlilədikcə başağrıları və təkrar qusma hücumları baş verə bilər. Bu simptomlar xəstəliyin irəlilədiyini göstərə bilər.

• Nevroloji Simptomlar: Nevroloji simptomlar quduzluğun irəli mərhələlərində özünü göstərir. Bunlara əzələ seğirmələri, iflic, əzələ zəifliyi və şüur itkisi daxil ola bilər.

• Fobiyalar və Halüsinasiyalar: Quduzluq xəstələri su fobiyası kimi anormal qorxularla qarşılaşa bilərlər. Onlar həmçinin əslində orada olmayan obyektləri görməyə və ya eşitməyə meyilli ola bilərlər.

Əlamətlər quduzluğa səbəb olan virus beyin və onurğa beynində yerləşdikdən sonra görünür. Bundan sonra heyvanın quduz olub-olmadığını anlamaq çox asandır. Çünki virus yerləşdikcə mərkəzi sinir sistemi stimullaşdırılır. Daha sonra heyvan aqressiv olur və digər heyvanları və insanları dişləməyə başlayır. Bu dövr qıcıqlanma mərhələsi adlanır. Bu dövrdə heyvanda iflic əlamətləri görünür. Buna görə də su içmək istəmir, tüpürcəyini uda bilmir və ağzından tüpürcək axmağa başlayır. Hürməsi boğulur, işıqlar onu narahat edir. Bu simptomlar göründükdən sonra heyvan 4-5 gün ərzində ölür. Bəzi hallarda, hücum və ya qəzəb əlamətləri müşahidə edilmir və heyvan ağır bir insult keçir və ölür.

İnsanlarda baş verən simptomlar demək olar ki, eynidir. Birinci dövrdə qıcolmalar və narahatlıq müşahidə olunur. Bundan sonra əzələlər ağrılı şəkildə yığılmağa başlayır və iflic yaranır. Şiddətli boğaz əzələlərinin daralması olduqca ağrılıdır. Ona görə də xəstə insan, su içməkdən, su görməkdən çox qorxur. Bundan əlavə mərkəzi sinir sistemində udma və tənəffüs refleksləri dayanır və simptomlar başladıqdan sonra heç bir müalicə yoxdur. Yalnız xəstəliyin inkubasiya dövründə tətbiq olunan profilaktik müalicə çox uğurlu nəticələr verir. Ona görə də quduzluq əvvəllər olduğu kimi, qorxulu xəstəliklər arasında deyil.

**Xəstəlikdən qorunmaq üçün nə etmək olar?**

• Yara və ya dişləmə yeri gecikmədən bol su və sabunla yaxşıca yuyulmalı, daha sonra spirt və ya yodlu antiseptiklər tətbiq edilməlidir.

• Gözlər, ağız və ya burun quduzluq riski ilə təmasda olarsa, bol su ilə yuyulmalıdır.

• Ən qısa zamanda bir səhiyyə müəssisəsinə müraciət edilməli və həkim tərəfindən təşkil edilən peyvənd proqramı fasiləsiz həyata keçirilməlidir.

• Ev heyvanları nəzarət altında saxlanılmalı və xüsusilə gecələr buraxılmamalıdır.

• Pişiklər və itlər hər il quduzluğa qarşı peyvənd edilməlidir.

• Ətrafda xəstə, qəribə davranan və ya ölü heyvanlar görülərsə, onlara yaxınlaşmamalı və aidiyyəti orqanlara məlumat verilməlidir.

Xəstəliyə yoluxduğu güman edilən insanlara gecikmədən peyvənd və ya immun serum vurulur. Heyvanlara zəifləmiş quduzluq viruslarını aşılamaq və heyvanların qan zərdabını insanlara vurmaqla heyvanın qanında olan anticisimlər inkubasiya dövründə virusları öldürür və insanları ölümdən xilas edir. Fransız alimi Lui Paster bu serumu ilk dəfə 1885-ci ildə tətbiq etmişdir. Ancaq virus bədənə daxil olduqdan sonra 24 saat ərzində təsirli olur. Heyvan dişləməsi zamanı 1 gün ərzində profilaktik müalicəyə başlamaq lazımdır. Birbaşa təsirsiz hala gətirilən viruslarla hazırlanmış quduzluq peyvəndi əvvəllər quduz heyvanların beynindən alınmışdı. Yaranın şiddətindən və başın yaxınlığından asılı olaraq 2-3 həftə tətbiq olundu. İndi laboratoriyalarda istehsal olunan yeni quduzluq peyvəndi ilə profilaktik müalicə daha təhlükəsiz və çox asandır. Qola şprislə vurulan bu peyvəndin ciddi yan təsirləri yoxdur və ən ağır yaralarda belə bir neçə gün ara ilə ən çox 4 dəfə vurulması kifayətdir.

Quduzluqdan qorunmağın ən təsirli üsullarından biri də heyvanların mütəmadi olaraq peyvənd edilməsidir. Xəstəliyin yayılmasının qarşısını almaq üçün şübhəli heyvanlar nəzarətdə saxlanılır. Bundan əlavə, bütün itlər qeydiyyata alınmalı, sahibsiz və sahibsiz heyvanlar saxlanılmamalıdır. Şübhəli hallarda heyvanlar 10 gün ərzində nəzarət altında saxlanılmalıdır. Bu müddətdən sonra heyvan ölməzsə, quduz deyildir. Quduzluğla şübhəli ölmüş heyvanların başları bütöv şəkildə qablaşdırılır və buz üzərində laboratoriyaya çatdırılır. Əgər başqa bir heyvan quduz heyvanlar tərəfindən dişlənirsə, peyvənd edilməmişsə, öldürülməlidir. Öldürülməsi mümkün olmayan heyvanlar ən azı 6 ay karantində saxlanılmalıdır. Bu heyvanlar tutulduqdan sonra və 6 aydan sonra quduzluğa qarşı peyvənd edilməlidir. Peyvənd olunan heyvanı başqa heyvan dişləyibsə, təkrar peyvənd olunmalı və 3 ay nəzarətdə saxlanılmalıdır.

**Hansı hallarda quduzluğa qarşı peyvənd vurulmur?**

• Soyuqqanlı heyvanlar (ilan, kərtənkələ, tısbağa və s.) dişlədikdə.

• Quş dişləmələrində.

• 10 gündən çox əvvəl məlum və hələ də sağlam pişik və ya it tərəfindən dişlənmiş və ya təmasda olanlar.

• Quduzluq xəstəsinə müntəzəm qulluq göstərən tibb işçiləri ilə riskli təmas olmadıqda

**Körpələrdə və uşaqlarda quduzluğun simptomları**

Quduzluq bütün yaş qruplarında müşahidə edilə bilər. Ancaq körpələr və uşaqlar xüsusilə həssasdırlar. Çünki müalicə edilmədikdə simptomlar sürətlə inkişaf edə və ölümcül ola bilər. Uşaqlarda və körpələrdə quduzluğun simptomlarına aşağıdakılar daxildir:

• Qızdırma: İlk simptom adətən qızdırmadır.

• Əsəbilik: Körpələrdə və uşaqlarda narahatlıq, əsəbilik və ümumi diskomfort vəziyyəti müşahidə oluna bilər. Bu, yoluxmuş uşağın normal davranışından sapmaları ehtiva edə bilər.

• Baş ağrısı və qusma: Quduzluq infeksiyası irəlilədikcə baş ağrıları və təkrar qusma hücumları baş verə bilər. Bu simptomlar xəstəliyin irəlilədiyini göstərə bilər.

• Nevroloji Simptomlar: Nevroloji simptomlar quduzluğun irəli mərhələlərində özünü göstərir. Bunlara əzələ seğirmələri, iflic, əzələ zəifliyi və şüur itkisi daxil ola bilər.

• Fobiyalar və Halüsinasiyalar: Quduzluq xəstələri su fobiyası kimi anormal qorxularla qarşılaşa bilərlər. Onlar həmçinin, əslində, orada olmayan obyektləri görməyə və ya eşitməyə meyilli ola bilərlər.

***Sevilin Abbasova***

ARAŞDIRMA

ARAŞDIRMA

# Keratindən xərçəngə gedən yol

## *Saçlara tətbiq olunan keratin qadınlarda xərçəng yaradan ən böyük təhlükədir*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.***




***Bütün dünyada məşhur olan, milyonlarla qadının xilaskar hesab elədiyi, saçlarını əmanət etdiyi "Braziliya keratini" sürətlə xərçəng yaratmaqdadır. Qlobal güclərin sayəsində reklamı yaxşı təşkil edilən və hər gün müştərisi daha da artan bu təhlükəli maddə qadınları öz həyatı ilə "aşıq atması" kimi bir şeydir. Saçları qıvrım olan qadınlar üçün keratin xilaskardır, çünki onun sayəsində 6-8 ay saçlar düz qalır.***

### Keratin kanserogendir

Dünyanın ən məşhur, eyni zamanda, ən təzadlı fikirlər nimayiş etdirən sağlamlıq təşkilatlarından biri olan Amerika Dərman və Qida Qurumu tərəfindən ciddi bir xəbərdarlıq edilmişdi. Qurumun alimləri son illər bərbər salonlarında tələbatı artan Braziliya keratinin yüksək səviyyədə kanserogen maddə ehtiva etdiyini bildirdilər.

Qurum bildirirdi ki, keratinin tərkibində olan yüksək miqdarda formaldehid adlı maddə kansorogen maddələr sinfinə daxildir. Formaldehid maddəsinin əsas özəlliyi büzülməyin, burulmağın qarşısını almaqdan ibarətdir. Bu maddə dırnaq boyalarına, qırışmayan paltarlara, dodaq boyalarına da vurulur.

### Cəsədlərə vurulan maddə qadın saçlarına hopdurulur

Qeyd edək ki, istehsalçılar uzun müddət ütülü qalmasını istədikləri paltarlara bu maddəni tətbiq edirlər. Dırnaq boyalarının qıvrılmasının və büzüşməsinin qarşısını almaq üçün də bu maddədən istifadə edilir. Amma paltar və dırnaq boyasında bu məhluldan nisbətən az istifadə edilir, nəinki saçları düzləşdirmək üçün nəzərdə tutulan keratinin tərkibində. Formaldehid həm də morqdakı cəsədlərin çürüməsini önləmək məqsədi ilə də istifadə edilir.

Qeyd edək ki, Amerika Dərman və Qida Qurumu Braziliya keratininin tərkibi ilə bağlı laborotor müayinələrinin nəticəsini açıqlayanda məlum olub ki, içərisində ən çox 0,2 faiz nisbətində formaldehid ola biləcək Braziliya keratininin tərkibində bu təhlükəli maddə 8,7 - 10,4 faiz təşkil edir.




### 6-8 aylıq gözəlliyin töhfəsi – xərçəng!

Xatırladaq ki, bu maddə tətbiq edilən saçlarda 6-8 ay davam edə bilən qalıcı düzləşməyə sahib olur. Avropa ölkələrində 450-500 dollara tətbiq edilən bu məhsul bizim ölkəmizdə saçların həcmindən, uzunluğundan asılı olaraq fərqli qiymətlərə təklif edilir. Qiymətlərin nisbətən əlçatan olması bir çox qadının rəğbət bəslədiyi bu üsul xərçəngin yaranma səbəbi ola bilər. Amerika Dərman və Qida Qurumu bildirir ki, kansorogen maddənin saçlara tətbiqi dəri xərçəngi, nəfəs yolu xərçəngi yaradır.

Formaldehit bədənimizə tənəffüs yolu, həzm yolu və dəri məsamələri vasitəsi ilə girir. Keratin tətbiq edilən bütün insanlarda bu məhlul göz yaşarmasına, boğazın qıcıqlanmasına, asqırma və öskürməyə səbəb olur. Formaldehid bəzi həssas insanlarda burun qanamasına, yuxulamamürgüləməyə də səbəb olur, dəri səpkiləri yaradır, baş ağrısı, baş gicəllənməsi, diqqət pozğunluğu və buna bənzər bir çox fərqli problemlər ortaya çıxarır. Formaldehidin astma yaratması isə Amerika Dərman və Qida Qurumu tərəfindən artıq təsdiq edilib.

### Keratinin dəhşətini bilsələr də, qadağan etmirlər

Daha maraqlısı isə odur ki, Amerikada keratinin zərərləri sübut edilsə də, hələ ki, tətbiqi qadağan edilməyib. Bu ölkədə dövlətin icazəsi ilə gözəllik mərkəzlərində və apteklərdə tərkibində yüksək nisbətdə formaldehid olan keratinlər satılır. Amma Kanada Braziliya istehsalı olan bu məhsulun ölkəyə girişini və tətbiqini qadağa edən ilk ölkədir. Bu ölkədə aparılan toksikoloji müayinələr nəticəsində isə məlum olub ki, keratinin tərkibindəki formaldehid normadan 42 dəfə çoxdur.

Əldə etdiyimiz məlumata görə, ölkəmizə gətirilən keratinlər dərman vasitələri kimi qeydiyyatdan keçmir. Çünki məhlul kosmetik məhsul sayıldığından onun ölkəyə gətirilməsi və satılması üçün xüsusi icazəyə ehtiyac yoxdur.




### Bəs qiyməti?

Bakıda fəaliyyət göstərən gözəllik salonlarında da qadınların saçlarını düzləşdirmək adı ilə xəstəlik yayılır. Demək olar ki, bütün qadın salonları bu işlə məşğuldur. Qıvrım saçlı xanımların arzusu olan düz və hamar saçlar yaradılır, böyük ehtimalla gələcəkdə yaranan xərçəng xəstəliyinin "toxumları səpilir".

Bir neçə salona baş çəkdik, saçlarımı düzləşdirmək istədiyimi və keratinlə maraqlandığımı dedim, saçların uzunluğundan asılı olaraq qiymətlərin 80-200 manat arasında dəyişdiyini dedilər. Keratini haradan, necə əldə etdiklərini isə sirr kimi saxlayan da olur, xaricdən öz imkanları hesabına gətirdiyini deyənlər də, internetlə sifariş etdiyini deyənlər də. "Mən haradan bilim o saçlarıma zərər verməyəcək?", - deyə irad bildirdikdə isə "indiyədək heç kim narazı qalmayıb" dedilər.




Proses 200 manat ödəyib saçlarınızı düzləşdirməklə bitmir, siz saçınızın düz qalması üçün də xüsusi şampunlar və kremlər almalısınız ki, bunlar da ayda 40-50 manat civarında bir məbləğə başa gəlir. Siz siz olun, yaradanın verdiyi görkəmə qane olun, süni yollarla əldə edilən heç bir gözəllik insana xeyir gətirmir. Biz bunu estetik əməliyyatlardan sonra səhhətində yaranan problemlərdən şikayətlənən insanların timsalında çox görürük. Zənnimcə, qıvrım saçlarla gəzmək, xərçənglə qolboyun gəzməkdən daha yaxşıdır, elə deyil?

***Lalə Mehralı***

SON SƏHİFƏ

SƏS

9 fevral
2024-cü il


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# 95 nəfərin diplomu tanınmadı – SƏBƏBİ AÇIQLANDI



***Yanvar ayı üzrə 626 müraciətçinin 531-i barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilmiş, 95 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşmışdır. SİA xəbər verir ki, bu barədə Təhsildə Keyfiyyət Təminatı Agentliyi məlumat yayıb. Tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 76, dövlət nümunəli olmayan diplom üzrə 8, təhsil forması üzrə 4, akkreditasiyasız ali təhsil müəssisəsi səbəbilə 5, bakalavr diplomu üzrə imtina verilməsi səbəbilə 1, tədris yükü üzrə 1 nəfərin müraciəti mənfi qərarla*** yekunlaşmışdır.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Ukraynadan 186, Rusiya Federasiyasından 171, Türkiyə Respublikasından 149, Gürcüstandan 41, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı 17, İtaliyadan 13, Macarıstandan 7, Polşadan 7, Amerika Birləşmiş Ştatlarından 4, İsveçdən 4, Qırğızıstan Respublikasından 4, Çin Xalq Respublikasından 3, Fransadan 3, Qazaxıstan Respublikasından 3, Belarus Respublikasından 2, Əlcəzairdən 2, Almaniyadan 1, Belçikadan 1, Birləşmiş Ərəb Əmirliklərindən 1, Əfqanistandan 1, Estoniyadan 1, İspaniyadan 1, Kiprdən 1, Litvadan 1, Malavidən 1, Pakistan İslam Respublikasından 1 müraciətin olduğu müşahidə olunur.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, maliyyə üzrə 63, menecment üzrə 52, iqtisadiyyat üzrə 47, biznesin idarə edilməsi üzrə 37, dövlət və bələdiyyə idarəetməsi üzrə 19 müraciətçi qeydə alınmışdır. Bildiririk ki, sənədlərə ortalama baxılma müddəti 12 iş günü təşkil etmişdir.

# Zaqatalada məktəbdən çıxan 3 məktəblini avtomobil vurub

***DİN-in mətbuat xidmətinin Şəki regional qrupundan bildirilib ki, fevralın 8-i saat 13 radələrində Zaqatala rayonunun Göyəm kəndi ərazisində Emin İbrahimov idarə etdiyi "Mercedes" markalı avtomobil ilə piyadalar, 2013-cü il təvəllüdlü üç azyaşlını vurub. SİA xəbər verir ki, onlardan 2-si vəfat edib, digəri isə xəstəxanaya yerləşdirilib. Faktla bağlı cinayət işi başlanıb.***



# Bitkiləri düzgün necə dəmləməli?



Bitki çayları təbii şəfa mənbəyi olduğu üçün gün keçdikcə daha çox üstünlük təşkil edir. Daha çox istehlak edilən cökə, nanə, qızılgül kimi bitkilər həyatımızın ayrılmaz parçası və təbii şəfa mənbəyimiz olmaqda da davam edir. Bitki çayları kilo itkisi, soyuqdəymə, dəri qıcıqlanması və bir çox başqa şeylərə birbaşa təsir göstərir. Bu xüsusiyyətləri sayəsində bitki çayına demək olar ki, hər kəs üstünlük verir. Bitkiləri dəmlərkən ona qarşı hər hansı allergiyanızın olub-olmamasına mütləq diqqət etməlisiz, bunda əlavə uşaqlar üçün əgər bitki çayı dəmləmək istəyirsizsə bunu həkimdən soruşmağınızı, bu barədə daha dərin məlumat toplamağınızı tövsiyə edirik. "Bitkilər bizdə yetərincə çoxdur və hər bitki hansısa xəstəliyə, şikayətə uyğun tətbiq edilir. Məsələn nevroloji, sinir problemlərində ən çox istifadə olunan lavanta, cökə, ballınanə, çobanyastığı, dazıotu və s. Onları bir-biriylə qarışdırmaq olar, amma qramla dəmləsək yaxşı nəticə əldə edə bilərik". Bu sözləri SİA-ya açıqlamasında fizioterapevt və hicama uzmanı Ramazan Buluşov bildirib.

Bir çox xəstələrin bitki çaylarını içməmə səbəbi dadının çox acı gəlməsi, içilə bilməyəcək vəziyyətdə olmasıdır. Bundan əlavə bəzi bitkiləri içdikdə özlərində effekt görə bilməmələri də ola bilər. Bitkilərin dəmləmə deqiqəsi və hətta düzgün süzülməsi belə çox önəmlidir. Bitkilər 3-5 dəqiqə ərzində dəmlənməlidir əgər çox olarsa, o zaman çox acı dad verməyə başlayır. Bir çoxları bitkini daha çox dəmləyir və beləliklə, bunun daha effektiv olacağını düşünür. Lakin bu, heç doğru deyil. Məsələn:

1 çay qaşığı lavanda, 2 çay qaşığı çobanyastığı və 1 çay qaşığı gülümbaharm dəmləməliyiksə, insanlar bunu tamam fərqli edir, çay qaşığı əvəzinə xörək qaşığı götürür və suyu da az istifadə edir. Ona görə düzgün içmək, faydasını görmək istəyiriksə, mütləq bu qaydalara əməl olunmalıdır.

***Sevilin Abbasova***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2900**